**Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikasının İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətini təmin etmək məqsədi ilə və Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli Fərmanının icrası ilə bağlı Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**[1]

1. "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikasında ticarət, məişət və digər növ xidmət (iş görülməsi, xidmət göstərilməsi) Qaydaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 aprel tarixli 80 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 288; 1999, № 1, maddə 48; 2001, № 1, maddə 74; 2003, № 7, maddə 390; 2004, № 3, maddə 193; 2009, № 1, maddə 32) ləğv edilsin.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 3 aprel 2014-cü il
№ 94

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2014-cü il 3 aprel tarixli 94 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət**

## QAYDALARI

### 1. Ümumi müddəa

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətini təmin təmin etmək məqsədi ilə və Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli Fərmanının 2.3-cü bəndinin icrası ilə bağlı hazırlanmışdır və istehlakçılarla (alıcılarla) Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər (o cümlədən, satıcılar) arasında alqı-satqı və digər xidmətlərin göstərilməsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyir.[2]

### 2. Əsas anlayışlar

2.1. Bu Qaydalarda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **topdansatış** – şəxsi, ailə, məişət və digər bu kimi istehlak təyinatı istisna olmaqla, sahibkarlıq fəaliyyəti məqsədi ilə malların satışını həyata keçirən ticarət fəaliyyəti;

2.1.2 **pərakəndə satış** – bilavasitə sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan, yalnız şəxsi, ailə, məişət və digər bu kimi məqsədlər üçün malların satışını həyata keçirən ticarət fəaliyyəti;

2.1.3. **ictimai iaşə** – *qida* məhsullarının istehsalı, emalı, satışı və istehlakının təşkili ilə əlaqədar sahibkarlıq fəaliyyəti;[3]

2.1.4. **ticarət (xidmət) obyekti** – ticarət, ictimai iaşə, məişət və digər növ xidmət fəaliyyətini həyata keçirmək məqsədi ilə istifadə edilən, ticarət təşkilatlarına və (və ya) fərdi sahibkarlara mülkiyyət hüququ əsasında icarə hüququ, əməli idarəetmə hüququ ilə və ya digər qanuni əsaslarla məxsus olan əmlak kompleksi;

*2.1.4-1. **bazar** – müəyyən ərazidə daimi fəaliyyət göstərən, malların satışı və xidmətlərin göstərilməsi üçün ayrılmış ticarət yerlərinə malik əmlak kompleksi;*

*2.1.4-2. **topdansatış bazarı** – ticarət yerlərinin 80 faizdən çoxunu topdansatış yerləri təşkil edən bazar;*

*2.1.4-3. **pərakəndə satış bazarı** – ticarət yerlərinin 80 faizdən çoxunu pərakəndə satış yerləri təşkil edən bazar;*

*2.1.4-4. **kənd təsərrüfatı məhsulları bazarı** – ticarət yerlərinin 80 faizdən çoxu kənd təsərrüfatı məhsullarının satışına ayrılmış ixtisaslaşdırılmış bazar;*

*2.1.4-5. **yaşıl market** – yalnız bitkilərin, bitkiçilik məhsullarının və heyvan mənşəli məhsulların satışını həyata*

*keçirən ticarət obyekti;*

*2.1.4-6.* ***fermer mağazası*** *– yerli fermer, ailə kəndli və ev təsərrüfatları tərəfindən istehsal olunmuş məhsulların satışının həyata keçirildiyi ixtisaslaşdırılmış ticarət obyekti (mağaza);*

*2.1.4-7.* ***yarmarka*** *– müəyyən edilmiş ərazidə və müddətdə malların satışı (işlərin görülməsi, xidmətlərin göstərilməsi) məqsədi ilə təşkil edilən tədbir;*

*2.1.4-8.* ***kənd təsərrüfatı və qida məhsullarının satış-yarmarkaları*** *– müəyyən edilmiş ərazidə və müddətdə kənd təsərrüfatı və qida məhsullarının satışı (işlərin görülməsi, xidmətlərin göstərilməsi) məqsədi ilə təşkil edilən tədbir;*[4]

*2.1.4-9.* ***kənd təsərrüfatı kooperativi bazarı*** *– kənd təsərrüfatı kooperativi kimi dövlət qeydiyyatından keçmiş hüquqi şəxs tərəfindən idarəedilən kənd təsərrüfatı məhsulları bazarı;*[5]

2.1.5. **satış qiyməti** — mal vahidinə (kəmiyyətinə) qoyulmuş son qiymət məzənnəsi;

2.1.6. **satıcı (ticarətçi)** — alqı-satqı əməliyyatı aparan, mal satan müəssisə, idarə, təşkilat və ya sahibkar;

2.1.7. **istehlakçı** — şəxsi tələbatlarını ödəmək məqsədi ilə mal, iş və xidmətlərdən istifadə edən, onları alan, sifariş verən, yaxud almaq və ya sifariş vermək niyyəti olan şəxs;

2.1.8. **istehsalçı** — mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, satış üçün mal istehsal edən müəssisə, idarə, təşkilat və ya sahibkar;

2.1.9. **icraçı** — iş görən, yaxud xidmət göstərən müəssisə, idarə, təşkilat və ya sahibkar;

*2.1.10.* ***qida məhsullarının qablaşdırılması*** *- məhsullara əmtəə görünüşü verən, məhsulun tam və ya qismən örtülməsini təmin edən, məhsulun tərkibini açılmamış və tamlığı pozulmamış vəziyyətdə qoruyan vasitə, daşınma məqsədilə istifadə olunan tara;*[6]

2.1.11. **markalanma** — məhsula aid olan və həmin məhsulu müşayiət edən və ya ona istinad edən qab, sənəd, bildiriş, nişan, halqa, yaxud qapaqda yerləşən hər hansı bir söz, ticarət markası, əmtəə nişanı, şəkilli material, rəmz;

*2.1.11-1.* ***etiketlənmə*** *- qida və yem məhsullarının üzərinə, qablaşdırma materialına, qida və yem məhsulunu müşayiət edən və ya ona aid olan sənədlərə, yaddaş vərəqələrinə (içlik vərəqələri), yapışdırılan vərəqələrə (stikerlərə) vurulan, istehlakçı üçün məhsul və istehsalçı barəsində informasiya verən mətn, nişan (əmtəə və digər), simvol, şərti işarələr və rəsmlər;*[7]

2.1.12. **məhsulun adı** — malın son istehlakçıya və ya ictimai iaşə obyektlərinə satıldığı ənənəvi ad, yaxud istehlakçıya onun əsl təbiətini bildirmək və onu digər oxşar mallardan fərqləndirmək imkanı vermək üçün kifayət qədər aydın olan ad;

2.1.13. **inqrediyent** — *qida məhsullarının* hazırlanmasında istifadə olunan, yaxud hazır *qida məhsullarının* tərkibində ilkin və ya dəyişilmiş formada mövcud olan maddələr, heyvan, bitki, mikrobioloji, mineral mənşəli *maddələr*, o cümlədən qida əlavələri ~~*və bioloji fəallığa malik qida əlavələri*~~;[8]

2.1.14. **ticarət fəaliyyəti** — malların satışı, ictimai iaşə, məişət və digər növ xidmətlərin həyata keçirilməsinə yönəldilmiş fiziki və hüquqi şəxslərin sahibkarlıq fəaliyyəti;

2.1.15. **ticarət fəaliyyətinin subyektləri** — qanunvericiliklə müəyyən edilmiş qaydada ticarət, ictimai iaşə, məişət və digər növ xidmətləri həyata keçirən fiziki və hüquqi şəxslər;

2.1.16. **zəmanət müddəti** — qanunvericilikdə və ya müqavilədə nəzərdə tutulmuş zəmanət öhdəliklərinin qüvvədə olduğu müddət;

2.1.17. **xidmət müddəti** — istehlakçının istehlak olunmayan mallar barədə təyinatına uyğun təhlükəsiz istifadə etməsinə təminat verdiyi müddət;

~~2.1.18. **saxlama müddəti** — *qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarda* nəzərdə tutulmuş qaydada və şərtlərlə saxlandıqda, yeyinti (qida) məhsullarının keyfiyyətinin (istehlak xassələrinin) olduğu kimi saxlanılmasına təminat verən müddət;~~[9]

2.1.19. **idxal** — Azərbaycan Respublikasının gömrük ərazisindən geriyə qaytarılmaq öhdəliyi olmadan malların ölkəyə gətirilməsi;

2.1.20. **ticarət prosesi** — malların satışını və hərəkətini təmin edən ticarət-texnoloji əməliyyatların məcmusu;

2.1.21. **ticarət-texnoloji əməliyyat** — malların daşınması, yerdəyişməsi, qəbulu, yüklənilməsi, boşaldılması, saxlanılması, bükülməsi, qablaşdırılması, satışqabağı hazırlanması, təqdim edilməsi və dövriyyəyə buraxılması;

2.1.22. **ticarət-texnoloji avadanlıq** — ticarət-texnoloji əməliyyatların yerinə yetirilməsi məqsədi ilə istifadə olunan avadanlıq;

2.1.23. **standart** — maraqlı tərəflərin əksəriyyətinin razılığı əsasında hazırlanmış və müvafiq səlahiyyətli təşkilatlar və ya orqanlar tərəfindən təsdiq edilən kütləvi istifadə üçün nəzərdə tutulmuş *malların (xidmətlərin, işlərin)* keyfiyyətinə və təhlükəsizliyinə dair tələbləri müəyyənləşdirən normativ sənəd;[10]

2.1.24. **uyğunluq sertifikatı** — sertifikatlaşdırma sisteminin qaydaları üzrə sertifikatlaşdırılmış *malın (xidmətin, işin), prosesin, idarəetmə sisteminin və işçi heyətinin müvafiq standartla,*

*texniki reqlamentlə və digər normativ hüquqi aktla müəyyən olunmuş tələblərə* uyğunluğunu təsdiq edən sənəd;[11]

~~2.1.25. **gigiyenik sertifikat** – sanitar-epidemioloji ekspertizanın nəticələri əsasında məhsulların təhlükəsizlik tələblərinə uyğunluğu barədə müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş sənəd;~~

*2.1.25-1. **qida zənciri obyektinin və ya subyektinin (qida obyekti və ya subyekti), habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalını həyata keçirən obyektlərin qeydiyyatı** - qeydiyyat üçün tələb olunan məlumatlar təqdim edildiyi halda Azərbaycan Respublikasının ərazisində qida və yem məhsullarının ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi və utilizasiyası həyata keçirilən qida obyektləri və ya qida obyektləri olmadan fəaliyyət göstərən qida subyektləri, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalını həyata keçirən obyektlərin "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qeydiyyata alınması;*[12]

*2.1.25-2. **qida zənciri obyektlərinin təsdiqi** - siyahısı Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən heyvan və bitki mənşəli qida məhsullarının və yem məhsullarının istehsalı, emalı, dövriyyəsi və utilizasiyası ilə məşğul olan qida obyektlərinin Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra - Agentlik) tərəfindən qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilməklə, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təsdiqi;*[13]

2.1.26. **fitosanitar sertifikatı** – "Beynəlxalq Bitki Karantini və Mühafizəsi Konvensiyası"na uyğun olaraq, nümunəvi forma əsasında hazırlanmış və təsdiq edilmiş bitki və bitkiçilik məhsullarının fitosanitar vəziyyəti barədə rəsmi sənəd;

*2.1.26-1. **baytarlıq şəhadətnaməsi** – malların, o cümlədən heyvan mənşəli məhsulların və xammalın baytarlıq-sanitariya ekspertizasından keçirilməsi barədə müəyyən olunmuş qaydada və nümunədə hazırlanan və müvafiq səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən təsdiq edilən rəsmi sənəd;*[14]

2.1.27. **nəzarət markası** – audiovizual əsərin, fonoqramın, kompyuter proqramının, məlumat toplusunun, kitabın nüsxələrinin və digər müəlliflik və əlaqəli hüquq obyektlərinin müəlliflik hüququ və əlaqəli hüquqlara əməl edilməklə hazırlandığını (istehsal olunduğunu), həmçinin satış üçün müvafiq dövlət orqanından razılığın alınması tələb olunan malların, məmulatların və məlumat materiallarının satışına belə razılığın verilməsini təsdiq edən və həmin nüsxələri yaymaq hüququ verən, nüsxələrə yapışdırılan hərf-rəqəm kodu və holoqrafik müdafiə vasitəsi olan və birdəfəlik istifadə üçün nəzərdə tutulan vahid nümunəli xüsusi nişan;

2.1.28. **daxili karantin sertifikatı** – ölkə daxilində daşımalar zamanı bitki və bitkiçilik məhsullarının fitosanitar vəziyyəti barədə rəsmi sənəd;

*2.1.29. **qida məhsulları** - insanların qidalanması üçün nəzərdə tutulan emal olunmamış, yarımemal olunmuş və ya tam emal olunmuş məhsullar, o cümlədən qida əlavələri, bioloji aktiv qida məhsulları, qida xammalı, içkilər (alkoqollu və alkoqolsuz), içməli su (qablaşdırılmış), duz və saqqız. Bu anlayışa yem məhsulları, istehlak üçün hazır olmayan diri heyvanlar, toxum, məhsulun yığımına qədər bitkilər, dərman vasitələri, ətriyyat-kosmetik vasitələr, tütün və tütün məhsulları, narkotik və psixotrop maddələr və çirkləndirici maddələr daxil deyildir;*[15]

~~2.1.30. **minimal keyfiyyət tələbləri** – qida məhsulunun insanların istifadəsi üçün yararlı olmasına zəmanət verən orqanoleptik, fiziki və (və ya) kimyəvi xüsusiyyətləri;~~ [16]

*2.1.31. **qida təhlükəsizliyi** - qida zəncirinin bütün mərhələlərində, habelə qida məhsullarının istehlakı zamanı qida məhsullarının insanların həyat və sağlamlığına zərər vurmasını tam istisna edən vəziyyəti;*[17]

~~2.1.32. **xüsusi təyinatlı qida məhsulları** – öz xüsusi tərkibinə və ya emal prosesinə görə normal istehlak üçün nəzərdə tutulan qida məhsullarından fərqlənən, metabolizm və ya həzm prosesi pozulmuş və ya xüsusi fizioloji şəraitlərdə olan şəxslərin və ya sağlam körpə və azyaşlı uşaqların qidalanmada ehtiyacını ödəmək üçün müvafiq tərkibə malik olan, təyinatına uyğun formada satılan qida məhsulları;~~

~~2.1.33. **qida yararlılığı** – minimum keyfiyyət tələblərinə uyğunluğu əsaslandırılmaqla, istifadəyə yararlı olması barədə zəmanət;~~

*2.1.34. **qida məhsullarının yararlılıq müddəti** - saxlanma şərtlərinə əməl edilməklə, qida məhsullarının qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarla müəyyən edilən təhlükəsizlik tələblərinə uyğunluğunun tam saxlanılması müddəti;*[18]

~~*2.1.35. **qida təhlükəsizliyi göstəriciləri** - qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarla müəyyən olunan yeyinti məhsullarının istehsalında istifadə edilən bitki və heyvan mənşəli xammalın və qida əlavələrinin, tamlı maddələrin, köməkçi emal maddələrinin tərkibində kimyəvi və dərman maddələrinin, bioloji, mikrobioloji və digər preparatların qida təhlükəsizliyi göstəriciləri;*~~[19]

2.1.36. **pirat məhsul** – hüquq sahibinin razılığı olmadan hazırlanan (istehsal edilən) və yayılan audiovizual əsərin, fonoqramın, kompyuter proqramının, məlumat toplusunun və kitabın nüsxələri;

2.1.37. **kontrafakt məhsul** – əmtəə nişanları, coğrafi göstəricilər və ya onları qarışdıracaq dərəcədə oxşar nişanlarla qeyri-qanuni təchiz olunan mal.

## 3. Ticarət (xidmət) fəaliyyətinə olan ümumi tələblər

3.1. Ticarət (xidmət) obyektləri fəaliyyətlərini Azərbaycan Respublikasının qanunvericiliyinə və bu Qaydalara uyğun tənzimləyirlər.

*3.1-1. Şuşa şəhərinin ərazisində sahibkarlıq fəaliyyəti "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla keçirilir.*[20]

3.2. Ticarət (xidmət) obyektlərinin işçiləri bu Qaydaları bilməli və onlara riayət etməlidirlər.

3.3. Hər bir ticarət (xidmət) obyektinin giriş qapısında (ön tərəfdə) onun adını, mənsubiyyətini və iş rejimini əks etdirən lövhə asılmalıdır. *Fermer mağazalarının lövhələrində əlavə olaraq xüsusi tanıdıcı və fərqləndirici loqotip yerləşdirilməlidir.*[21]

*3.3-1. Birbaşa aid olduğu ticarət (xidmət) obyektlərinin giriş hissəsində, fasadında (divarında, hasarında) yerləşdirilən və həmin obyektlərin adını, mənsubiyyətini, fəaliyyət növünü, ünvanını və iş rejimini istehlakçıya çatdıran sayı 1-dən, ümumi ölçüsü 1 kvadratmetrdən artıq olmayan lövhələr (yazılar) reklam qurğuları və yerləşdirilməsinə icazə alınması tələb olunan reklam hesab edilmir.*[22]

*3.3-2. Etil (qida) spirtinin, alkoqollu və energetik içkilərin və ya tütün məmulatlarının satışını həyata keçirən ticarət (xidmət) obyektlərinin giriş hissəsində etil (qida) spirtinin, alkoqollu və energetik içkilərin və ya tütün məmulatlarının yetkinlik yaşına çatmayanlara satılmasının qadağan edildiyini əks etdirən elan yerləşdirilməlidir.*[23]

3.4. Ticarət (xidmət) obyektinin mülkiyyətçisi və ya rəhbəri (satıcısı) istehlakçının tələbi ilə dövlət qeydiyyatı və onu qeydə alan orqan haqqında, *fəaliyyətinə lisenziya və ya icazə tələb olunduğu hallarda isə lisenziyanın və ya icazənin nömrəsi, əgər vardırsa icazənin müddəti* və onu verən orqan haqqında məlumat verməlidir. Daimi yerləşdiyi yerdən kənarda ticarət fəaliyyəti həyata keçirilən hallarda da analoji məlumat istehlakçının nəzərinə çatdırılmalıdır. *İctimai iaşə obyektlərinin mülkiyyətçisi və ya rəhbəri (satıcısı) obyektin qida təhlükəsizliyi sahəsində qeydiyyatı və ya təsdiqi haqqında məlumat verməlidir.*[24]

3.5. Daimi fəaliyyət yerindən kənarda satıcını təmsil edən nümayəndənin üzərində soyadı, adı, atasının adı və onun haqqında digər məlumatlar əks olunmuş, vəsiqəsi məsul şəxsin imzası və möhürü ilə təsdiq edilmiş olmalıdır.

3.6. Ticarət (xidmət) obyektinin iş rejimi aşağıdakı qaydada müəyyən edilir:

3.6.1. dövlət və bələdiyyə müəssisələrinin iş rejimi müvafiq icra hakimiyyətinin və yerli özünüidarəetmə orqanlarının qərarı ilə;

3.6.2. müəssisə, idarə və təşkilatlarda, təhsil müəssisələrində fəaliyyət göstərən obyektlərin iş rejimi xidmət göstərilən müəssisələrin müdiriyyəti ilə razılaşdırılmaqla;

3.6.3. hüquqi və fiziki şəxslərə məxsus olan ticarət (xidmət) obyektinin iş rejimi qanunvericiliklə müəyyən olunmuş qaydada onun mülkiyyətçisi (rəhbəri) və ya fərdi sahibkar tərəfindən.

3.7. Ticarət (xidmət) obyekti istehlakçılara müəyyən edilmiş iş saatlarında xidmət göstərməlidir. Nahar fasiləsində və obyektin iş vaxtı bitdikdə, istehlakçıların ticarət və xidmət zalına daxil olmasına icazə verilmir. İş vaxtının sonunda obyektin işçiləri istehlakçılara iş vaxtının bitməsi barədə məlumat verirlər.

3.8. Ticarət (xidmət) obyekti nahar fasiləsinə bağlandıqda, yaxud iş günü bitdikdə, nəzarət-kassa aparatı da öz işini bitirir, lakin nəzarət-kassa çeki və ya əmtəə çeki olan istehlakçılara müvafiq qaydada xidmət göstərilir.

3.9. Sanitar günü, təmir və digər işlər aparılan zaman ticarət (xidmət) obyektində müvəqqəti olaraq iş dayandırıldıqda, satıcı bu barədə istehlakçıları məlumatlandırmalıdır.

3.10. Ticarət (xidmət) obyekti istehlakçılara düzgün seçim imkanını verən şəraitə, ticarət zalına (xidmət zalına), malların keyfiyyətini və təhlükəsizliyini təmin edən yardımçı binalara malik olmalı, eləcə də əməyin, sağlamlığın və ətraf mühitin qorunması, yanğından mühafizə, malların (xidmətlərin) saxlanılması, istehsalı və satışı üzrə normativ hüquqi aktlarda nəzərdə tutulmuş digər tələblərə cavab verməlidir. *Yaşıl marketlər əlavə olaraq anbar, laboratoriya, avtopark kimi infrastruktura və sertifikatlaşdırılmış ekoloji təmiz kənd təsərrüfatı məhsullarının satışı üçün xüsusi bölmələrə malik olmalıdır.*[25]

3.11. Ticarət (xidmət) obyektləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada müqayisəli yoxlamadan keçmiş və standartlara uyğun olan müvafiq ölçmə vasitələri ilə təmin olunmalıdır.

3.12. İstehlakçının müstəqil surətdə və ya obyektin işçisinin köməkliyi ilə aldığı malın çəkisinin və ölçüsünün düzgün olduğunu müəyyən etməsi üçün obyektin ticarət zalında görünən yerdə nəzarət ölçü vasitələri yerləşdirilməlidir.

3.13. Ticarət (xidmət) obyektinin yerləşdiyi sahə və otaqlar, su və kanalizasiya təchizatı sistemi, istilik və havalandırma, istifadə edilən avadanlıqlar, cihazlar, qablar və digər təchizat vasitələri sanitariya normaları və qaydalarının, gigiyena normativlərinin tələblərinə uyğun olmalıdır.

3.14. Satıcılar və digər xidmət işçiləri fəaliyyət sahəsindən və işin xüsusiyyətlərindən asılı olaraq, təmiz iş paltarları (önlük, papaq, əlcək və s.) ilə təmin olunmalıdırlar.

3.15. Ticarət (xidmət) obyektlərində işə qəbul edilən işçilər qanunvericiliyə uyğun olaraq və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən müəyyən olunmuş qaydada *ilkin və dövri* tibbi müayinədən (baxışdan) keçməlidirlər, *habelə gigiyenik təlimlərə cəlb olunmalıdırlar*.

[26]

3.16. Ticarət (xidmət) obyektləri müəyyən olunmuş qaydada nəzarət kitabçaları ilə təmin edilməlidirlər.

3.17. Ticarət, ictimai iaşə, məişət və digər növ xidmət (iş görülməsi) fəaliyyətinə *dövlət sanitariya nəzarəti orqanları* tərəfindən rəsmi razılıq olan hallarda yol verilir. [27]

3.18. Ticarət, ictimai iaşə, məişət və digər növ xidmət (iş görülməsi) fəaliyyəti nəticəsində ətraf mühitin çirkləndirilməsinə və insanların narahatlığına səbəb olan hallara yol verilməməlidir.

3.19. Ticarət, ictimai iaşə, məişət və digər növ xidmət (iş görülməsi) fəaliyyəti nəticəsində yaranan tullantıların iş günü ərzində sanitariya qaydalarına uyğun yığılıb saxlanılması, daşınması və aparılması, zəruri hallarda ixtisaslaşdırılmış idarələrlə müqavilə əsasında həşəratlara və gəmiricilərə qarşı mübarizə tədbirləri təşkil edilməlidir.

*3.20. Ticarət, ictimai iaşə, məişət və digər növ xidmətlərin göstərilməsi (işlərin görülməsi) zamanı istehlakçılar (alıcılar) tərəfindən malların və məhsulların daşınması üçün nəzərdə tutulan qalınlığı 15-50 mikron olan, qulplu və qulpsuz, yüngülçəkili polietilen torbalar istehlakçılara (alıcılara) ayrıca məhsul növü kimi təqdim edilməlidir. Bu növ məhsulların ayrıca təqdim edildiyi və satış qiyməti barədə istehlakçıya (alıcıya) əvvəlcədən məlumat verilməlidir.*[28]

*3.21. Bu Qaydalar ilə müəyyən edilmiş ödənişlər 'Nağdsız hesablaşmalar haqqında' Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.*[29]

## 4. Malların qəbulu, saxlanılması və satışa hazırlanması

4.1. Hüquqi və fiziki şəxslər malların qəbulunu müvafiq sənədlərə və qüvvədə olan qanunvericiliyə uyğun olaraq həyata keçirirlər.

4.2. Hüquqi və fiziki şəxslərin ticarət obyektlərinin anbarında və satışda olan mallar üzrə təchizatçının (malgöndərənin) rekvizitləri, daxil olmuş malın miqdarı, qiyməti və ümumi məbləği əks etdirilmiş müvafiq təsdiqedici sənədlər olmalıdır.

4.3. Malların mənşəyini və qiymətini təsdiq edən qaimə, uyğunluq sertifikatı (məcburi sertifikatlaşdırılmalı mallar üçün) olmadıqda, həmçinin pirat və ya kontrafakt malların ticarət şəbəkələrinə daxil edilməsi, saxlanılması və satışı qadağandır.

4.4. Tez xarab olan *qida məhsulları* üzrə müşayiətedici sənədlərdə *qida məhsullarının adı, qida və enerji dəyəri, tərkibi, miqdarı, keyfiyyət göstəriciləri, istehsal tarixi, yararlılıq müddəti, saxlanma şəraiti, tərkibindəki allergenlər, mənşəyi, istehsalçının adı və ünvanı, istehsal üsulu və istifadə qaydaları* mütləq göstərilməlidir. [30]

4.5. Malların keyfiyyəti, markalanması, saxlanma rejimi və forması (temperaturu, nəmliyi, saxlanma *(qida məhsullarının yararlılıq)* müddətləri) *texniki normativ hüquqi aktlarla* müəyyən edilmiş tələblərə cavab verməlidir.[31]

4.6. Saxlanma *(qida məhsullarının yararlılıq)* müddəti göstərilməmiş, yararlılıq müddəti ötmüş, habelə markalanması, qablaşdırılması, etiketlənməsi, əmtəə görünüşü pozulmuş, keyfiyyətini və təhlükəsizliyini təsdiq edən sənədləri olmayan və *texniki normativ hüquqi aktların* tələblərinə cavab verməyən malların satışı qadağandır.[32]

4.7. Malların anbarlarda saxlanılması, onların ticarət zallarında və xırda pərakəndə ticarət şəbəkələrində yerləşdirilməsi tələblərinə və satışı zamanı mal qonşuluğu prinsiplərinə, sanitariya və yanğından mühafizə qaydalarına ciddi riayət edilməlidir.

4.8. Yararlılıq müddəti ötmüş, qablaşdırılması və markalanması *texniki normativ hüquqi aktların* tələblərinə cavab verməyən mallar satışda olan mallarla bir yerdə saxlanılmamalıdır. Belə mallar mal sahibi (satıcı) tərəfindən satış dövriyyəsindən çıxarılaraq, ticarət zalında və ya anbar sahəsində xüsusi ayrılmış yerdə saxlanılmalıdır. Yararlılıq müddəti ötmüş mallar mal sahibi (satıcı) tərəfindən xüsusi vasitələrin köməyi ilə istifadə üçün tam yararsız vəziyyətə gətirilməlidir.[33]

4.9. Ticarət obyektinin qarşısında, ətrafında malların (işlərin, xidmətlərin) nümunələrinin nümayiş etdirilməsinə (qoyulmasına), satışına, xidmətlərin göstərilməsinə yol verilmir.

4.10. Ticarət obyektində işə başlamazdan əvvəl istehlakçılara lazımi qaydada xidmətin göstərilməsini təmin etmək üçün bütün hazırlıq işləri görülür. İstehlakçılara tez xidmət göstərmək üçün yardımçı sahədə olan mallar vitrinə tam çeşiddə və lazımi miqdarda düzülür.

4.11. Ticarət obyektində satılan sertifikatlaşdırılmalı olan mallar onların keyfiyyətini və təhlükəsizliyini təsdiq edən sertifikatlarla müşayiət olunmalıdır.

4.12. Ticarət obyekti məhsulu müvafiq qaydada hazırlayır, texniki cəhətdən mürəkkəb məhsulların saxlanılması və xırda təmiri, qablaşdırma materiallarından çıxarılması, təmizlənməsi, səliqəyə salınması, satışa hazırlanması, kəsilməsi və əvvəlcədən qablaşdırılması və s. işlərini aparır.

4.13. Qablaşdırılmamış şəkildə daxil olmuş mallar, əgər qanunvericilikdə digər hal nəzərdə tutulmayıbsa, satıcı tərəfindən malın xüsusiyyətinə uyğun olaraq qabaqcadan qablaşdırılaraq və etiketlənərək istehlakçıya təqdim edilməlidir. Qanunvericilikdə digər hal nəzərdə tutulmamışdırsa, etiketdə məhsulun adı, növü və tərkibi, istifadə sahəsi və

qaydaları, istehsal tarixi və yararlılıq müddəti, saxlanma şərtləri, istehsalçının adı, ünvanı və *texniki normativ hüquqi aktlarda* tələb olunan, *habelə qida məhsullarına münasibətdə "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsi ilə müəyyən olunan* digər məlumatlar olmalıdır. [34]

4.14. Ticarət zalında olan mallar istehlakçıların sərbəst seçə bilmələri üçün şüşəli şkaflara, asılqanlara, taralara, səbətlərə, soyuducu avadanlıqlara, kasetlərə və digər vasitələrə yığılır.

4.15. Ticarət obyektlərinin vitrinlərində pərakəndə satış qiymətləri göstərilməklə ancaq satışda olan malların nümunələri qoyulur. Vitrinə qoyulmuş mallar istehlakçının tələbi ilə onların keyfiyyəti yoxlanıldıqdan sonra satılır.

4.16. Vitrinlərin müvafiq tərtibatı üçün istifadə olunan bəzək elementləri, mallar və ya mağazanın avadanlıqları satılmır.

4.17. Ölçmək, çəkmək, dozalara bölmək üçün standartlara uyğun olmayan qüsurlu cihazlar istifadədən götürülməli, standartlara uyğun hala gətirilməli və müqayisəli yoxlamadan keçirilməlidir.

4.18. Ticarət obyektinin işçilərinə həmin obyektə məxsus olmayan malları ticarət zalında saxlamaq qadağan edilir.

4.19. Ticarət obyektinin işçilərinin üst geyimləri və şəxsi əşyaları bu məqsəd üçün nəzərdə tutulmuş xüsusi yerlərdə saxlanılır.

4.20. *Qeyri-qida* mallarının (paltar, ayaqqabı, trikotaj məmulatı və s.) satışı zamanı ticarət obyektində onların geyilib baxılması, texniki cəhətdən mürəkkəb olan malların isə yoxlanılması üçün müvafiq şərait yaradılmalıdır.[35]

## 5. Malların satışına olan ümumi tələblər

5.1. Topdansatış ticarət obyektlərindən mallar hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə müqavilələr əsasında satılır. Topdansatış ticarəti ilə məşğul olan ticarət obyektlərində malların pərakəndə satışı qadağandır. Pərakəndə ticarət sahəsində fəaliyyət göstərən təsərrüfat obyektlərindən, hüquqi və fiziki şəxslər tərəfindən pərakəndə qaydada alınmış *qida məhsullarının*, tütün və tütün məmulatlarının sonradan pərakəndə satışı qadağandır. [36]

5.2. Satışda yalnız buraxılması və ya satışı qadağan olunmamış məhsullar ola bilər. Dövriyyədən çıxarılmış malların alqı-satqısı qadağandır.

5.3. Dövriyyəsi məhdudlaşdırılmış mallar (mülki silah, zəhərli preparatlar və s.) onların özgəninkiləşdirilməsinə ~~*xüsusi*~~ icazə olduğu halda satıla bilər. Belə malları isə yalnız onları əldə etməyə *icazəsi* olan istehlakçılar əldə edə bilərlər.[37]

5.4. Dövriyyəsi məhdudlaşdırılmış malların satışı müvafiq qanunlarla yanaşı, bu Qaydalara ciddi riayət edilməklə həyata keçirilir.

5.5. Xarici valyutanın və qiymətli kağızların (səhmlər, istiqrazlar ~~*, dövlət özəlləşdirmə çekləri*~~ və s.) alqı-satqısı ~~*Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi qaydada və*~~ müvafiq qanunlarla tənzimlənir.[38]

5.6. Qanunvericiliklə müəyyən edilmiş hallar istisna olmaqla, üzərində Azərbaycan Respublikasının dövlət əyar damğası olmayan və ya saxta əyar damğası həkk olunan qiymətli metallardan və qiymətli daşlardan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının satışı qadağandır.

5.7. Satıcı istehlakçıların düzgün seçim etməsini təmin etmək üçün mallar, onların istehsalçıları haqqında zəruri və düzgün məlumat verməyə borcludur. *Satışa çıxarılan malların reklamı "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olmalıdır.* [39]

*5.7-1. Tütün məmulatlarının buraxılmasını bilavasitə həyata keçirən şəxs (satıcı) tütün məhsulunu istifadə edən şəxsin (alıcının) yetkinlik yaşına çatmasına şübhə etdikdə, satıcı alıcıdan onun şəxsiyyətini təsdiq edən və yaşını müəyyən etməyə imkan verən sənəd tələb edir.*[40]

5.8. Azərbaycan Respublikasının ərazisində istehsal edilən, habelə ixrac edilən malların üzərindəki etiketlər və digər yazılar müvafiq xarici dillərlə yanaşı, dövlət dilində də olmalıdır. Azərbaycan Respublikasına idxal edilən mal və məhsulların üzərindəki etiketlər və adlar, onlardan istifadə qaydaları barədə izahat vərəqələri başqa dillərlə yanaşı, Azərbaycan dilinə edilmiş tərcümə ilə də müşayiət olunmalıdır.

5.9. İstehlakçının tələbinə görə satıcı mal haqqında məlumatı ona şifahi də verə bilər. Mal haqqında məlumat hər bir halda istehlakçını çaşdırmayan, malın xüsusiyyətləri barədə birmənalı və anlaşıqlı formada verilməlidir.

5.10. Satışda olan mallar haqqında aşağıdakı məlumatlar müvafiq qaydada istehlakçıların nəzərinə çatdırılmalıdır:

5.10.1. malın adı, onun qiyməti;

5.10.2. istehsalçının yerləşdiyi yer (hüquqi ünvanı), firma adı, tələblərin (iradların) verildiyi, təmir və ya texniki xidmət göstərən təşkilatın adı, yerləşdiyi ünvan;

5.10.3. malın məcburi tələblərə uyğunluğunu təsdiq edən sertifikatın və ya digər

texniki normativ sənədin işarəsi;

5.10.4. malın əsas xüsusiyyətləri və istehlak xassələri (*qida və enerji dəyəri, tərkibi, miqdarı, keyfiyyət göstəriciləri, istehsal tarixi, yararlılıq müddəti, saxlanma şəraiti, tərkibindəki allergenlər, mənşəyi, istehsal üsulu*);[41]

5.10.5. malın səmərəli və təhlükəsiz istifadəsi qaydaları və şərtləri;

5.10.6. zəmanət müddəti (əgər konkret mal üçün nəzərdə tutulmuşdursa);

5.10.7. xidmət və yararlılıq müddəti (əgər konkret mala dair belə müddətlər müəyyən edilmişdirsə və ya müəyyən olunmalıdırsa), həmçinin xidmət və yararlılıq müddəti keçmişdirsə ehtimal olunan təhlükələr, təyinatı üzrə istifadənin mümkünsüzlüyü (insan həyatı, sağlamlığı, əmlakı və ətraf mühit üçün);

5.10.8. təminat öhdəlikləri və iddiaların irəli sürülməsi qaydaları.

*5.10-1. İctimai iaşə obyektləri qida təhlükəsizliyi sahəsində nəzərdə tutulmuş tələbləri yerinə yetirdikdən və Agentlik tərəfindən qeydiyyata alındıqdan və ya təsdiq edildikdən sonra qida məhsullarını istehlakçılara təqdim edə bilərlər.*[42]

5.11. Əgər satılan mal istifadədə olmuşdursa, istehlakçıya bu barədə düzgün məlumat verilməlidir.

5.12. Malın qüsurları haqqında satıcı istehlakçını həm şifahi, həm də yazılı formada (malın yararlılığı, əmtəə çeki, etiketi və ya sair üsulla) məlumatlandırmalıdır.

5.13. Standartlarla və ya qanunvericiliklə ayrı-ayrı mal qrupları üzrə istehlakçıların nəzərinə aşağıdakı məlumatların da mütləq surətdə çatdırılması nəzərdə tutula bilər:

5.13.1. malın əsas və funksional təyinatı və ya tətbiqi dairəsi;

5.13.2. malın təhlükəsiz istifadə qaydası və şərtləri, saxlanılması, daşınması, təmiri, bərpası, malın utilləşdirilməsi, basdırılması və məhv edilməsi qaydası və şərtləri;

5.13.3. malın komplektliyi (komplektin tərkibi), kütləsi (çəkisi), əsas ölçüləri, həcmi və miqdarı;

5.13.4. saxlanma və yararlılıq müddəti;

5.13.5. tezalışan, partlayan, zəhərləyici və sair xüsusiyyətlərə malik mallar üzərində müvafiq qaydada göstərilən xəbərdaredici yazılar;

5.13.6. malın ekoloji cəhətdən, enerjiyə qənaət baxımından xüsusiyyətləri.

5.14. Satıcı satılan malların qanunvericiliklə (standartlarla) müəyyən edilmiş tələblərə uyğunluğunu təsdiq edən məlumatların istehlakçılara çatdırılmasını (markalanma yolu ilə uyğunluq nişanının mövcudluğunu) təmin etməlidir.

5.15. İstehlakçının tələbilə satıcı aşağıdakı *aidiyyəti sənədləri* tanış olması üçün ona təqdim etməyə borcludur:[43]

5.15.1. sertifikat və ya onun surəti (müvafiq olaraq uyğunluq, ~~gigiyenik~~, baytarlıq, fitosanitar, mənşə sertifikatı, *qida obyektinin (subyektinin) qeydiyyata alınmasına və ya təsdiq olunmasına, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalını həyata keçirən obyektlərin qeydiyyata alınmasına dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarış, idxal olunmuş qida və yem məhsullarına, habelə qida məhsulları ilə təmasda olan material və məmulatlara verilən idxal sağlamlıq aktı*);[44]

5.15.2. qaimə - faktura.

5.16. Mülki dövriyyəsi məhdudlaşdırılmış malların satışı zamanı satıcı istehlakçıya onun xahişi ilə səlahiyyətli orqanın ~~*xüsusi*~~ icazəsini təqdim etməlidir.[45]

5.17. Malların *insan həyatı və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına* təsirinə dair tələblər müvafiq normativ sənədlərlə müəyyən olunur. [46]

~~5.18. Standartların və digər normativ sənədlərin məcburi tələblərinə cavab verməyən malların satılması (xidmətlərin göstərilməsi, işlərin yerinə yetirilməsi) qadağandır.~~[47]

5.19. Nəzarət markası ilə markalanmalı olan malların, məmulatların və məlumat materiallarının belə nəzarət markası olmadan ticarət obyektlərində satış məqsədi ilə saxlanılması və ya satılması qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

5.20. Satıcı (istehsalçı, icraçı) istehlakçıya keyfiyyəti və təhlükəsizliyi *texniki normativ hüquqi aktlara*, müqavilə şərtlərinə və həmçinin mal (iş, xidmət) haqqında istehsalçının (icraçının) təqdim etdiyi məlumata uyğun olan mal verməlidir.[48]

5.21. Azərbaycan Respublikasının ərazisinə idxal olunmuş mallar onların lazımi keyfiyyətini *və təhlükəsizliyini* təsdiq edən sənədlə, milli sertifikatlaşdırma orqanı tərəfindən tanınan sertifikatla müşayiət olunmalıdır. [49]

5.22. Standartların tələblərinə uyğunluğu könüllü bəyan edildikdə, əgər həmin standartların tələbləri ilə malların daşınması, saxlanması, buraxılışı zamanı təhlükəli xüsusiyyətlərlə (zərərli nəticələrlə) müşayiət olunarsa, satıcıya istinad edilən standartın mətni və ya ondan çıxarış təqdim olunmalıdır.

5.23. Qanunvericiliyə uyğun olaraq sertifikatlaşdırılmalı olan, lakin sertifikatlaşdırılmamış malların satılması (işlərin yerinə yetirilməsi, xidmətlərin göstərilməsi) qadağandır.

5.24. Bu Qaydaların 5.15-ci və 5.16-cı bəndlərində göstərilən sənədlər olmadan malların

qəbulunun (satışının) həyata keçirilməsi nəticəsində insan həyatına, onun sağlamlığına, ətraf mühitə, fiziki və ya hüquqi şəxslərin, dövlət və ya bələdiyyələrin əmlakına dəyən ziyana (zərərə) görə satıcı *həmin sənədlərin* tələblərini bilmədiyini əsas gətirə bilməz.[50]

5.25. Satıcıdan malların təhlükəsizliyini təsdiq edən digər sənədlər tələb oluna bilməz.

5.26. Satılan mala (onun istehsalçısına) dair zəruri (lazımi) məlumatın həcmi (malın üzərində, istehlak tarasında, qabında, yarlığında, etiketində, texniki sənədlərində göstərilən məlumatlar) normativ hüquqi aktların, müvafiq standartların məcburi tələblərinə uyğun olmaqla tam əhatə olunmalıdır.

5.27. İstehlakçıya göstərilən xidmətlər, onların qiymətləri, şərtləri, eləcə də malların satışı ilə əlaqədar tətbiq edilən xidmətlərin formaları (əvvəlcədən sifariş, malların evə və digər təyinat yerinə çatdırılması və s.) haqqında da düzgün məlumat verilməlidir.

5.28. Ticarət obyektlərində istehlakçıya müstəqil surətdə və ya satıcının köməyi ilə lazım olan mallara baxış keçirmək, pərakəndə satış qaydalarına zidd olmamaqla, malların xüsusiyyəti ilə tanış olmaq və ya işlək xüsusiyyətini nümayiş etdirmək imkanı verilməlidir.

5.29. Satıcı qanunvericiliklə, standartların məcburi tələbləri ilə və ya müqavilə şərtləri ilə nəzərdə tutulduğu hallarda satışa təqdim olunan malların keyfiyyətini və təhlükəsizliyini (baxış, sınaq, təhlil, ekspertiza yolu ilə) yoxlamağa borcludur.

5.30. Satılan malların qiyməti, həmçinin müqavilə şərtləri qanunla güzəşt və imtiyaz tətbiq edilən istehlakçılar istisna olmaqla, bütün istehlakçılar üçün eyni olmalıdır.

5.31. Satışda olan bütün malların üzərində malın adı, növü və qiyməti göstərilməklə, dəqiq tərtib edilmiş qiymət kağızı, qiymət kağızının arxa tərəfində isə maddi məsul şəxsin imzası (və ya təşkilatın möhürü) və onun doldurulma tarixi olmalıdır.

5.32. Malın adı, çəkisi və növü qablaşdırma materialında (qutusunda) göstərilərsə, qiymət yarlığında ancaq mal vahidinin dəyəri (ədədin qiyməti) göstərilməlidir.

5.33. Daimi ticarət yerindən kənarda və ya səyyar formada mal satan satıcının nümayəndəsi malın adı və qiyməti göstərilməklə, məsul şəxsin imzası və satıcının möhürü ilə təsdiq edilmiş preyskuranta malik olmalıdır.

5.34. Pərakəndə alqı-satqı müqaviləsində, o cümlədən istehlakçının qoşulduğu standart formaların şərtlərində ayrı qayda nəzərdə tutulmayıbsa, alqı-satqı müqaviləsi satıcının istehlakçıya kassa və ya əmtəə çekini və ya malın dəyərinin ödənildiyini təsdiq edən digər sənədi verdiyi andan lazımi formada bağlanmış hesab edilir.

5.35. Səyyar formada və ya daimi ticarət yerindən kənarda - evdə, iş, təhsil yerində, nəqliyyatda, küçə və s. yerlərdə dondurma, alkoqolsuz içkilər, istehsalçı tərəfindən qablaşdırılmış çörək-bulka və qənnadı məmulatları *meyvə-tərəvəz məhsulları* istisna olmaqla, *qida məhsullarının*, dərman vasitələrinin, qiymətli metal və daşların, onlardan hazırlanan məmulatların, silah-sursatın, audiovizual əsər və fonoqramların, elektron hesablama maşınları üçün proqramların satılmasına yol verilmir.[51]

5.36. Bu Qaydaların 5.35-ci bəndində göstərilən ticarət yerlərində satışına icazə verilən mallara dair istehlakçıya malın adı, satıcı haqqında məlumat, malın qiyməti, miqdarı, eləcə də satıcının nümayəndəsinin imzası olan əmtəə çeki verilməlidir.

5.37. Satılan malın pulu ödənilərkən, istehlakçıya malın satıldığını təsdiq edən qanunvericilikdə nəzərdə tutulmuş qəbz, kassa çeki və ya digər yazılı sənəd verilməlidir.

5.38. Mal zəmanət müddəti ilə satılarkən, satıcı məmulatın pasportunda malın bu obyektdən alındığını və malın satıldığı tarixi təsdiq edən ştamp vurur və imzası ilə təsdiq edir.

5.39. Ticarət, məişət və digər xidmətlərin göstərilməsi zamanı istehlakçılarla hesablaşmalar qanunvericiliklə müəyyən edilmiş qaydada aparılır.

5.40. İstehlakçının seçdiyi mal obyektdə satıcının mala yazdığı çekdə göstərilmiş ödəniş vaxtından 3 (üç) saat müddətində saxlanıla bilər.

5.41. Nağdsız hesablaşma yolu ilə alınmış mallar ödəniş sənədləri təqdim olunduğu ana qədər obyektdə saxlanıla bilər.

5.42. Kreditə alınan mallar sənədləşdirildikdən sonra, istehlakçının istəyi ilə ticarət şəbəkəsində bir gün saxlanıla bilər. Müqavilədə başqa qayda müəyyən edilmədikdə, göstərilən müddət başa çatdıqdan sonra alınmamış mallar satışa verilir.

5.43. Alınmış böyükhəcmli malları (mebel, tikinti materialları, piano, soyuducu, paltaryuyan maşın və s.) istehlakçı ticarət obyektində bir gün müddətində saxlaya bilər. Bu müddət ticarət obyektinin rəhbərinin razılığı ilə haqqı ödənilməklə artırıla bilər.

5.44. Alınmış və saxlanılmağa qoyulmuş mallara kassa çekinin və saxlanma *(qida məhsullarının yararlılıq)* müddəti göstərilməklə verilmiş qəbzin surəti əlavə edilir, malın üzərində "satılıb" sözü əks olunan lövhə qoyulur. Saxlanılmağa verilmiş müddətdə satıcı malın saxlanılmasına və keyfiyyətinə görə məsuliyyət daşıyır.[52]

5.45. Malların satışı ilə əlaqədar təklif edilən xidmətlər yalnız istehlakçının razılığı ilə həyata keçirilə bilər. İstehlakçı mal satışı ilə əlaqədar təklif edilən xidmətdən imtina edə, eləcə də onun razılığı olmadan belə xidmətə görə ödənilmiş haqqı geri tələb edə bilər.

5.46. Satıcı konkret malın mütləq qaydada bu və ya digər malla birlikdə satılmasını və ya malların satışının bu və ya digər xidmətlə əlaqələndirilməsini (texniki tələblərə və xüsusiyyətlərinə görə malın yığılması və (və ya) quraşdırılması müvafiq mütəxəssis olmadan mümkün olmadığı hallar istisna olmaqla) şərtləndirə bilməz.

5.47. İrihəcmli mallar istehlakçının nəqliyyat vasitəsində daşındıqda, satıcı belə malların nəqliyyat vasitəsinə yüklənilməsini öz hesabına həyata keçirməyə borcludur.

5.48. Satıcı istehlakçıya malı lazımi keyfiyyətdə, tarada və (və ya) qabda (xarakterinə görə taralaşdırılması və (və ya) qablaşdırılması tələb olunmayan mallar istisna olmaqla), müəyyən komplektdə, yardımçı əşyalarla və mala aid sənədlərlə birlikdə verməlidir. Malın keyfiyyətinə, tara və (və ya) qabına, komplektliyinə, yardımçı əşyalara, mala dair sənədlərə, həmçinin malların çatdırılması şərtlərinə olan tələblər qanunvericiliklə müəyyən edilir.

5.49. Satıcı yararlılıq müddəti müəyyən olunmuş malları istehlakçıya ondan təyinatı üzrə istifadə edə biləcəyi müddəti (ağlabatan) nəzərə alaraq verməyə borcludur. *Qanuna müvafiq olaraq müəyyən edilmiş tələblərə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsullarının geri çağırılması, yığışdırılması, utilizasiyası və məhv edilməsi "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 30.1-ci maddəsi ilə müəyyən olunmuş qaydada həyata keçirilir.* [53]

5.50. İstehlakçı satıcı tərəfindən daha uzun müddət müəyyən edilməyibsə, *qeyri-qida məhsulunu* ona verildiyi andan 14 gün ərzində alış yerində və satıcının elan etdiyi digər yerlərdə başqa ölçülü, formalı, qabaritli, rəngli və ya quruluşlu oxşar mala dəyişdirə bilər. Bu zaman qiymət fərqi olduqda, satıcı ilə lazımi hesablaşma aparılır. [54]

5.51. Satıcıda dəyişdirilmək üçün uyğun mal olmadıqda, istehlakçı əldə etdiyi malı satıcıya qaytara, mal üçün ödədiyi pulu geri ala və ya analoji mal ticarət obyektinə daxil olan kimi dəyişdirə bilər. Satıcı dəyişdirilməsi tələb olunan *qeyri-qida məhsulunun* satışa daxil olması haqqında istehlakçını məlumatlandırmalıdır. Mal işlədilməmişdirsə, onun istehlak xassələri, əmtəə görünüşü, plombu, yarlığı qorunub saxlanılmışdırsa və həmin satıcıdan alındığına dair sübutlar vardırsa, istehlakçının malın dəyişdirilməsi və ya qaytarılması tələbi ödənilir.[55]

5.52. İstehlakçıya keyfiyyətsiz mal satıldıqda, malın qüsurları satıcı tərəfindən qabaqcadan bildirilmədikdə, istehlakçı öz seçimi ilə aşağıdakı tələblərdən birini irəli sürə bilər:

5.52.1. keyfiyyətsiz malın lazımi keyfiyyətli malla əvəz edilməsini;

5.52.2. satış qiymətinin uyğun məbləğdə azaldılmasını;

5.52.3. malın qüsurlarının icraçının (satıcının, istehlakçının) hesabına aradan qaldırılmasını və ya qüsurların aradan qaldırılması üçün istehlakçının və ya üçüncü şəxslərin çəkdiyi xərclərin əvəzinin ödənilməsini;

5.52.4. malın həmin mala uyğun digər modelli (markalı, tipli və s.) malla, dəyəri yenidən hesablanma şərtilə əvəz edilməsini;

5.52.5. müqavilənin ləğv edilməsini və çəkdiyi zərərin ödənilməsini.

5.53. İstehlakçı texniki mürəkkəb və ya bahalı malların keyfiyyətində mühüm qüsurlar (məqsədli təyinatı üzrə istifadə olunmasını qeyri-mümkün və ya yolverilməz edən, istehlakçı üçün aradan qaldırıla bilinməyən, aradan qaldırılması üçün çoxlu əmək və vaxt məsrəfi tələb edən, yaxud aradan qaldırıldıqdan sonra qüsurları yenidən üzə çıxan mal (iş, xidmət) aşkar edərsə, onun lazımi keyfiyyətli malla əvəz edilməsi tələbini irəli sürə bilər.

17.20. İstehlakçının təqsiri üzündən mallar təyinat yerinə çatdırılmadan geri qaytarıldıqda, istehlakçı tərəfindən əlavə haqq ödənilməklə, mallar təkrar müvafiq yerə çatdırıla bilər.
17.21. Əgər istehlakçıya müqavilə şərtlərinə uyğun olmayan qüsurlu mal göndərilərsə, istehlakçı 14 gündən gec olmayaraq, satıcıya malda aşkarlanmış qüsurlar barədə məlumat verməlidir. Bu halda satıcı qüsurlu malı yenisi ilə əvəz etməlidir. Əgər qeydə alınan qüsur istehlakçı tərəfindən aradan qaldırılarsa, çəkilmiş xərc satıcı tərəfindən istehlakçıya ödənilməlidir.
17.22. Əvvəlcədən haqqı ödənilmiş malın çatdırılması müqavilədə göstərilən müddətdə yerinə yetirilmədikdə, istehlakçı malın çatdırılmasını və ya əvvəlcədən ödənilmiş məbləğin geri qaytarılmasını satıcıdan tələb edə bilər.
17.23. Müqavilədə malın verilməsi (çatdırılması) istehlakçının bilavasitə satış yerində malın dəyərinin ödənilməsi ilə şərtləndirilə bilər.
17.24. Əgər müqavilədə malın çatdırılması müddəti nəzərdə tutulmayıbsa, istehlakçı malı ağlabatan müddətdə təyinat yerinə çatdırmağa borcludur.
17.25. Nümunələr üzrə alqı-satqı müqaviləsi əgər müqavilədə başqa qayda nəzərdə tutulmayıbsa, malın müqavilədə göstərilən təyinat yerinə çatdırıldığı andan, təyinat yeri göstərilmədikdə isə istehlakçının və ya onu təmsil edənin yaşayış yerinə çatdırıldığı vaxtdan icra edilmiş hesab olunur.
17.26. Müqavilədə həmçinin bu və ya digər xidmət göstərilməsi ilə əlaqədar şərtlər olduqda, belə müqavilə şərtləşdirilmiş xidmətin yerinə yetirildiyi vaxtdan icra edilmiş hesab olunur.
17.27. Qanunla və digər normativ aktlarla malların keyfiyyətinə dair məcburi şərtlər müəyyən edildikdə, satıcı keyfiyyəti məcburi tələblərə uyğun gələn malı istehlakçıya verməyə borcludur.

17.28. Müqavilədə keyfiyyətlə bağlı şərtlər olmadıqda, satıcı malın məqsədli təyinatına uyğun və adətən istifadə edilən malı istehlakçıya verməyə borcludur.

17.29. Satıcı malla birlikdə istehlakçıya mala aid sənədləri də (texniki pasport, istifadə təlimatı və s.) verməlidir.

17.30. Lazımi keyfiyyətdə olmayan malı əldə edən istehlakçı bu Qaydaların 5.52-ci - 5.59-cu bəndlərində göstərilən tələblərdən birini irəli sürə bilər.

17.31. Müqavilə ləğv edildikdə, satıcının tələbilə və onun hesabına istehlakçı qüsurlu malı geri qaytarmağa borcludur.

17.32. Satıcıya (istehsalçıya) qarşı bu Qaydaların 5.52-ci -5.59-cu bəndlərindəki tələblər istehlakçı tərəfindən müvafiq sənədlər əlavə edilməklə yazılı şəkildə irəli sürülməlidir.

## 18. İstifadədə olmuş *qeyri-qida məhsullarının* satışının xüsusiyyətləri[88]

18.1. Bu Qaydaların 5.10-cu bəndində göstərilən məlumatlarla yanaşı, istifadədə olmuş *qeyri-qida məhsullarına* dair istehlakçılara aşağıdakılar barədə də məlumat verilməlidir:

18.1.1 malın vəziyyəti və qüsurları (çatışmazlıqları);

18.1.2. mala dair görülmüş sanitariya-epidemioloji tədbirlər;

18.1.3. texniki xüsusiyyətləri (mürəkkəb texniki mallar üçün);

18.1.4. malın təyinatı və onun təyinatı üzrə və ya digər məqsədlər üçün istifadə imkanları.

18.2. İstifadədə olmuş *qeyri-qida məhsullarının* vəziyyəti, xüsusiyyətləri, o cümlədən qüsurları (çatışmazlıqları) haqqında məlumatlar əmtəənin yarlığında göstərilməlidir.

18.3. Müəyyən olunmuş tələblərə uyğunluğun təsdiq edilməsi, yararlılıq və ya xidmət müddəti haqqında məlumat verilməsi tələb olunan istifadədə olmuş *qeyri-qida məhsulları* satışa təqdim edildikdə, lakin belə məlumatların verilməsi mümkün olmadıqda, satıcı bu haqda istehlakçını xəbərdar etməlidir.

18.4. İstifadədə olmuş tibbi təyinatlı mallar, dərman preparatları, şəxsi gigiyena əşyaları, ətriyyat-kosmetika malları, məişət kimyası malları, corablar, alt paltarları, körpə uşaqlar üçün paltarlar və müvafiq sanitariya işlənməsindən keçməyən və bu barədə müvafiq təsdiqedici sənədləri (sertifikatı) olmayan paltarların, birdəfəlik istifadə üçün nəzərdə tutulmuş qabların satışı qadağandır.

18.5. İstifadədə olmuş mallara satışqabağı baxış keçirilməli, növlərinə və istehlak xüsusiyyətlərinin itirilməsi əlamətlərinə görə ayrılmalı, xarici əlamətlərinə görə keyfiyyəti, malın işə yararlılığı, komplektliyi və lazımi sənədlərin mövcudluğu yoxlanılmalıdır.

18.6. Əgər istifadədə olmuş malın üzərində təmizləmə, yuma, dezinfeksiya, dezinseksiya aparılmayıbsa və ya bu barədə müvafiq təsdiqedici sənədlər mövcud deyildirsə, satıcı malı satışqabağı bu əməliyyatlardan keçirməlidir.

18.7. İstifadədə olmuş texniki mürəkkəb məişət əşyaları satılan zaman istehlakçıya əmtəə çeki ilə yanaşı (satıcıda mövcud olduğu zaman), müvafiq texniki sənədlər (texniki pasport və ya onu əvəz edən sənədlər, istifadə qaydaları barədə təlimat), həmçinin zəmanət talonu verilməlidir.

18.8. İstifadədə olmuş lazımi keyfiyyətdə olmayan *qeyri-qida məhsulu* satıldıqda, malda mövcud olan qüsurlar, çatışmazlıqlar barədə istehlakçıya məlumat verilmədikdə, istehlakçı öz seçimi ilə bu Qaydaların 5.52-5.59-cu bəndlərində nəzərdə tutulan tələbləri irəli sürə bilər.

18.9. Bu Qaydaların 5.52.3-cü və 5.52.4-cü yarımbəndlərində göstərilən tələblər əmtəənin xarakterindən və ya öhdəliyin mahiyyətindən başqa digər hal yaratmadığı halda irəli sürülə bilər.

## 19. Meyvə-tərəvəz məhsullarının satışı

19.1. Meyvə-tərəvəzlərin, meyvə-tərəvəz yarımfabrikatlarının, yabanı meyvələrin və giləmeyvələrin təzə, qurudulmuş, emal edilmiş, konservləşdirilmiş şəkildə pərakəndə satışı *pərakəndə satış bazarlarında, kənd təsərrüfatı məhsulları bazarlarında, yaşıl marketlərdə, fermer mağazalarında, yarmarkalarda,* meyvə-tərəvəz mağazalarında, pavilyonlarda və digər ticarət obyektlərində həyata keçirilir.[89]

19.2. Ticarət obyektlərində, eləcə də mövsümi və səyyar ticarət obyektlərində, arabalarda, açıq tərəvəz bazarlarında təzə meyvə-tərəvəz məhsullarının qəbuluna və satışına həmin *məhsullar qida zənciri obyekti və ya subyekti qeydiyyatına alındıqda və ya təsdiq edildikdə, habelə idxal olunan məhsullara münasibətdə idxal sağlamlıq aktına malik olduqda* icazə verilir.[90]

19.3. Meyvə-tərəvəz satışını həyata keçirən obyektlər texniki normalara uyğun lazımi mexaniki vasitələrlə və inventarlarla təmin edilməlidir.

~~19.4. *Agentliyin* rəsmi icazəsi olmayan yerlərdə, həmçinin qanunvericiliklə müəyyən edilmiş hallarda fitosanitar tələblərə uyğunluğu sertifikatlaşdırılmamış meyvə-tərəvəz məhsullarının satışı qadağandır.~~

19.5. Qablaşdırılmış meyvə-tərəvəz məhsulları haqqında istehlakçılara onların xüsusiyyətləri nəzərə alınmaqla, *məhsulun etiketində* göstərilən məlumatlarla yanaşı, məhsulun emalının xüsusi üsulları, reklam xarakterli məlumatlar, yığım (tədarük) tarixi, qablaşdırma tarixi, saxlanma şərtləri, *qida obyektinin (subyektinin) qeydiyyata alınmasına və ya təsdiq olunmasına, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalını həyata keçirən obyektlərin qeydiyyata alınmasına dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarış, idxal olunan məhsullara münasibətdə idxal sağlamlıq aktı* barədə də məlumat verilməlidir.[91]

19.6. Meyvə-tərəvəz məhsulları ticarət zalında xüsusi ayrılmış yerlərdə çıxdaş olanlar ayrıldıqdan sonra satışa çıxarılmalıdır.

19.7. Meyvə-tərəvəz məhsulları rəflərdə, piştaxtalarda, kasetlərdə, zənbillərdə, yeşiklərdə yerləşdirilməlidir.

19.8. Piştaxtada, şüşə rəflərdə və vitrində malın adı, növü, ədədlə və ya çəki ilə satış qiyməti göstərilməlidir.

19.9. Satış prosesində keyfiyyəti aşağı düşən meyvə-tərəvəz məhsulları müəyyən edilmiş qaydada yenidən qiymətləndirilərək satışa təqdim oluna bilər.

## 20. Malların səyyar (mövsümi) satışının xüsusiyyətləri və xidmətlərin göstərilməsi

20.1. Səyyar (mövsümi) ticarət və xidmət küçələrin, səkilərin hərəkət hissəsində, dövlət müəssisə və təşkilatların binalarına, tarixi və mədəniyyət abidələrinə, təhsil müəssisələrinə bitişik ərazilərdə həyata keçirilə bilməz.

20.2. Müəyyən edilmiş sahələrdən kənarda səyyar (mövsümi) ticarət və xidmət fəaliyyəti qadağandır.

20.3. Səyyar (mövsümi) ticarət və xidmət zamanı icazə verilməyən yerlərdə aşağıdakı malların satılması (xidmətin göstərilməsi) qadağandır:

20.3.1. qiymətli metallardan və qiymətli daşlardan olan məmulatların;

20.3.2. ancaq elektrik şəbəkəsindən qidalanan mürəkkəb texniki malların (radio, televizor, elektrik məişət cihazları və digər elektrik mallarının);

20.3.3. səsgücləndirici cihazlardan istifadə etməklə audiokasetlər və audiovizual əsər və fonoqramların, elektron-hesablayıcı maşınlar üçün proqramların (onların nüsxələrinin);

20.3.4. dondurma, alkoqolsuz içkilər, istehsalçı tərəfindən qablaşdırılmış çörək-bulka və qənnadı məmulatları istisna olmaqla, bütün növ qida məhsullarının;

20.3.5. *insan həyatı və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına* digər məhsulların.[92]

20.4. Malların və məhsulların bilavasitə səkilərə, torpağın, yaşıllıqların, ağacların, yeşiklərin və s üzərinə qoyularaq satışı qadağandır.

20.5. Səyyar (mövsümi) ticarət və xidmət fəaliyyətinin həyata keçirildiyi yerdə verilmiş icazənin surəti asılmalıdır.

20.6. Səyyar (mövsümi) ticarət və xidmət fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslər aşağıdakıları yerinə yetirməyə borcludurlar:

20.6.1. fəaliyyət növünün aparılması üçün müəyyən edilmiş tələblərə və qaydalara əməl etməyə;

20.6.2. ayrılmış ərazidən kənarda fəaliyyətə yol verməməyə;

20.6.3. icazə verilmiş fəaliyyət növündən başqa digər fəaliyyəti həyata keçirməməyə;

20.6.4. ətrafda yaşayan və istirahət edən əhalinin narahatçılığına səbəb olan hərəkətlərə yol verməməyə;

20.6.5. ictimai asayişi pozmamağa;

20.6.6. sanitariya normalarına əməl etməyə;

20.6.7. səyyar (mövsümi) ticarət və xidmət fəaliyyəti başa çatdıqdan sonra ayrılmış ərazinin əvvəlki vəziyyətini bərpa etməyə;

20.6.8. səlahiyyətli dövlət orqanlarının mütəxəssisləri tərəfindən icazə verilmiş sahələrdə müvafiq fəaliyyət növünün həyata keçirilməsi qaydalarına, istismar şərtlərinə və əhaliyə xidmətin təşkilinə nəzarət edilməsinə şərait yaratmağa.

20.7. Səyyar (mövsümi) ticarət və xidmət zamanı sanitariya norma və qaydalarının tələblərinə riayət olunmalıdır.

20.8. Dövlət sanitariya nəzarət orqanları tərəfindən rəsmi icazə verilməyən yerlərdə və satışına icazə verilmiş çeşiddən kənara çıxmaqla *qida* məhsullarının səyyar satışı qadağandır.[93]

## *20-1. Yarmarkaların təşkili*[94]

*20-1.1. Yarmarkalar yerli icra hakimiyyəti orqanları tərəfindən hazırlanmış tədbirlər planına uyğun olaraq həmin orqan tərəfindən təşkil olunur. Yarmarkaların təşkil edilməsi üzrə tədbirlər planında yarmarkanın keçiriləcəyi ərazinin və tarixin seçilməsi, satış yerlərinin sxeminin hazırlanması, ticarətin təşkili ilə bağlı xidmətlərin göstərilməsi (ərazinin təmizlənməsi (yığışdırılması), baytarlıq-fitosanitar və sanitar-epidemioloji nəzarət tədbirlərinin görülməsi) və digər müddəalar nəzərdə tutulur.*

*20-1.2. Kənd təsərrüfatı və qida məhsullarının satış-yarmarkaları hər həftənin şənbə və bazar günləri, habelə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təklifi əsasında bayram günləri və digər əlamətdar hadisələrlə bağlı müəyyən edilən günlərdə keçirilir.* [95]

*20-1.3. Mərkəzi icra hakimiyyəti orqanı, hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs yarmarkanın təşkil edilməsi və keçirilməsi ilə bağlı yerli icra hakimiyyəti orqanına müraciət etməlidir. Yerli icra hakimiyyəti orqanı daxil olmuş müraciətə baxaraq, 5 (beş) iş günü müddətində müvafiq qərar qəbul etməlidir.*

*20-1.4. Yerli icra hakimiyyəti orqanları bu Qaydaların 20-1.1-ci bəndində nəzərdə tutulan məlumatları əks etdirən tədbirlər planını yarmarkanın keçiriləcəyi tarixdən ən azı 30 gün əvvəl təsdiq etməlidirlər.*

*20.1-5. Yarmarkalarda qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə cavab verən, qida obyektinin (subyektinin) qeydiyyata alınmasına və ya təsdiq olunmasına dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarışı olan subyekt (illik dövriyyəsi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən ailə-kəndli təsərrüfatları istisna olmaqla) tərəfindən istehsal edilmiş qida məhsulları satışa çıxarıla bilər.*[96]

*20-1.6. Yarmarkanın təşkilatçısı müraciət edən mərkəzi icra hakimiyyəti orqanı, hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslə birlikdə yarmarkanın təşkil edilməsi və orada məhsul satışı (işlərin görülməsi, xidmətlərin göstərilməsi) üzrə tədbirlər planını hazırlayıb təsdiq etməli, yarmarkanın dislokasiyasını, iş rejimini, satılacaq məhsulların növünü və satış yerlərini müəyyənləşdirməli, mediada və internet saytlarında yarmarkanın keçirilməsi barədə məlumat verməli, satıcıları satış yerləri, ölçmə vasitələri ilə təmin etməli və yarmarkanın keçirilməsi ilə əlaqədar digər xidmətlərin (ərazinin təmizlənməsi (yığışdırılması), baytarlıq-fitosanitar və sanitar-epidemioloji nəzarət tədbirlərinin görülməsi və s.) göstərilməsini təşkil etməlidir.* [97]

*20-1.7. Yarmarkanın ərazisində nəzarət ölçmə vasitələrinin quraşdırılması və satılan məhsulların qiymətləri ilə bağlı məlumat lövhələrinin qoyulması yarmarkanın təşkilatçısı tərəfindən təmin olunmalıdır.*

*20-1.8. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən keçirilən kənd təsərrüfatı və qida məhsullarının satış-yarmarkalarının iştirakçılarından (satıcılardan) iştirakla bağlı heç bir haqq tələb olunmur. Kənd təsərrüfatı və qida məhsullarının satış-yarmarkalarının təşkili ilə bağlı tələb olunan vəsait Azərbaycan Respublikası dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində ərzaq təhlükəsizliyinin təmin edilməsi tədbirləri üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir.*

*20-1.9. Yarmarkanın keçirilməsi üçün müraciət edən hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olduqda, tələb olunan xərclər yarmarkanın təşkilatçısı ilə razılaşdırılmaqla, onun vəsaiti hesabına maliyyələşdirilir.*

*20-1.10. Yarmarkanın keçiriləcəyi ərazi baytarlıq-fitosanitar, sanitar-epidemioloji və ekoloji nəzarət qaydaları və normalarına, yanğından mühafizə qaydalarına uyğun olmalı və əhalinin gediş-gəlişi üçün rahat yerdə olmalıdır.*

*20-1.11. Yarmarkaların mədəniyyət, idman, təhsil və tibb müəssisələrinin, avtovağzal, dəmiryol və dəniz vağzallarının ərazilərində, eləcə də yolun hərəkət istiqamətində və yaşıllıq ərazilərində keçirilməsinə yol verilmir.* [98]

*20-1.12. Yarmarkada satılacaq məhsulların yerləri satış yerlərinin sxeminə uyğun olaraq nömrələnməlidir. Satış yerlərinin sxemi və onların sayı barədə məlumatlar yarmarkada hamının aydın görə biləcəyi yerdə asılmış məlumat lövhəsində əks olunmalıdır.*

*20-1.13. Yerli icra hakimiyyəti orqanı tərəfindən yarmarkanın keçirilməsi barədə məlumatlar əsasında yarmarkaların reyestri hazırlanır və mütəmadi olaraq yenilənir.*

*20-1.14. Kənd təsərrüfatı və qida məhsullarının satış-yarmarkalarının təşkilinə və onların fəaliyyətinə ümumi nəzarəti Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi həmin məhsulların təhlükəsizliyinə və keyfiyyətinə nəzarəti Agentlik, digər məhsullar üzrə təşkil olunan yarmarkalara isə aidiyyəti mərkəzi icra hakimiyyəti orqanları həyata keçirirlər.*[99]

## 21. Kredit müqaviləsi üzrə malların satışının xüsusiyyətləri

21.1. Malların kredit müqaviləsi üzrə satışı mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, pərakəndə ticarət obyektləri tərəfindən həyata keçirilir. Bu zaman ödəniş mal istehlakçıya verildikdən sonra hissə-hissə ödənilir.

21.2. Malların kreditlə satışında ödənişin müddəti alqı-satqı müqaviləsi ilə müəyyən edilir. Müqavilədə müddət müəyyən edilmədikdə, istehlakçı mülki qanunvericilikdə nəzərdə tutulmuş müddətdə öhdəliyi yerinə yetirməlidir.

21.3. Malı təhvil almış istehlakçı müqavilədə nəzərdə tutulan müddətdə ödənişi həyata keçirmədikdə, satıcı malın qiymətinin ödənilməsini və ya malın qaytarılmasını tələb edə bilər.

21.4. Satıcı müqavilədə göstərilmiş malı verməkdən imtina edərsə, istehlakçı öhdəliyin icrasını dayandırmaqla və ya icrasından imtina etməklə, zərərin əvəzinin ödənilməsini tələb etmək hüququna malikdir.

## 22. Bazarlarda ticarətin təşkili

22.1. Mülkiyyətçinin razılığı ilə bazarın ərazisində qanunvericiliyə uyğun olaraq, aidiyyəti dövlət orqanları ilə razılaşdırılmaqla, pərakəndə ticarət (xidmət) obyektləri yerləşdirilə bilər.

*22.1-1. Ticarət dövriyyəsinə daxil edilmiş balıq məhsullarının satışı kənd təsərrüfatı məhsullarının satışı*

*yerlərində, o cümlədən müvafiq avadanlıqlarla təchiz edilmiş baza, yarmarka, mağaza və xüsusi ayrılmış digər yerlərdə həyata keçirilir.*[100]

22.2. Bazarların ərazisində satışı qadağan edilən malların siyahısı, göstərilən xidmətlərin növü və dəyəri, bazarın idarəetmə, *Agentliyin tabeliyində olan Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun laboratoriyalarının* məntəqə, mal qrupları üzrə ixtisaslaşmış ticarət zonaları haqqında məlumatlar görünən yerdə (girişdə) yerləşdirilməlidir. [101]

22.3. Bazarın fəaliyyətinin tənzimlənməsi məqsədi ilə bazarın rəhbəri (mülkiyyətçisi) və onun ərazisində daimi fəaliyyət göstərən pərakəndə ticarət, ictimai iaşə, məişət və digər xidmət obyektləri arasındakı münasibətlər müqavilələr əsasında tənzimlənir.

22.4. Bazarın fəaliyyətinin tənzimlənməsi məqsədi ilə bazarın rəhbəri (mülkiyyətçisi) tərəfindən aşağıdakılar təşkil edilməlidir:

22.4.1. sanitariya-gigiyena və yanğından mühafizə qaydalarına, mal qonşuluğu prinsiplərinə ciddi riayət etməklə masaların, arabaların və digər ləvazimatların ticarət cərgələrində (zonalarında) yerləşdirilməsi, həmçinin istehlakçıların və satıcıların müstəqil hərəkəti üçün şəraitin yaradılması;

22.4.2. *qeyri-qida məhsullarının* satışı üçün xüsusi yerlərin ayrılması; [102]

22.4.3. müxtəlif mal qruplarının satışı üçün xüsusi şərait yaradılmış yerlərin ayrılması;

22.4.4. ticarət obyektlərinin və digər tikililərin qüvvədə olan sanitariya, əməyin mühafizəsi, əhalinin sağlamlığının və ətraf mühitin qorunması, yanğından mühafizəsi, habelə malların istehsalı, saxlanılması və satışı üzrə tələblərə uyğun olaraq müvafiq avadanlıqlarla (tərəzilərin, sanitar geyimlərinin və digər ticarət inventarlarının kirayəyə verilməsi şərtilə) təmin edilməsi;

22.4.5. lokal rabitə vasitəsilə elan və reklamların verilməsi;

22.4.6. satıcılara qiymət kağızlarının verilməsi;

22.4.7. ət və ət məhsullarının doğranması üçün satıcıların xüsusi avadanlıqlarla, cihazlarla, alətlərlə təmin edilməsi;

22.4.8. satıcıların malların saxlanılması üçün xüsusi şəraitli soyuducularla, digər kamera və anbarlarla təmin edilməsi;

22.4.9. bazarın rəhbəri (mülkiyyətçisi) ilə mal satan arasında bağlanılan müqaviləyə uyğun olaraq, bazarlarda piştaxtadan, masadan, arabadan, maşından və digər vasitələrdən istifadə üçün ödənilmiş pula görə ödəmə qəbzinin (və ya kassa mədaxil orderinin) verilməsi;

22.4.10. *istifadəyə yararsız və təhlükəli qida* məhsullarının zərərsizləşdirilərək məhv edilməsi üçün util peçinin təşkil edilməsi; [103]

22.4.11. qanunvericiliyə uyğun olaraq, aidiyyəti dövlət nəzarəti orqanlarının müvafiq göstərişlərinin icra edilməsi.

22.5. Bazarda aşağıdakılara yol verilmir:

22.5.1. qanunvericiliklə müəyyən edilmiş keyfiyyət və təhlükəsizlik tələblərinə cavab verməyən malların və məhsulların satışına;

22.5.2. satış üçün xüsusi şəraiti olmayan yerlərdə (obyektlərdə) tez xarab olan *qida məhsullarının* satışına; [104]

22.5.3. Azərbaycan Respublikasının *Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi* tərəfindən damğalanmamış tərəzidən və digər ölçü cihazlarından istifadəyə. [105]

### *22-1. Kənd təsərrüfatı məhsulları bazarında kənd təsərrüfatı kooperativlərinə ticarət yerlərinin verilməsi*[106]

*22-1.1. Kənd təsərrüfatı məhsulları bazarında kənd təsərrüfatı kooperativlərinə ticarət yerləri bazarın rəhbəri (mülkiyyətçisi) ilə kənd təsərrüfatı kooperativi arasında bağlanılmış müqavilə əsasında mövcud yerlərin 20 faizindən az olmamaq şərtilə verilir.*

*22-1.2. Bazarın rəhbəri (mülkiyyətçisi) ilə kənd təsərrüfatı kooperativi arasında müqavilənin bağlanılması üçün kənd təsərrüfatı kooperativi ərizə ilə bazarın rəhbərinə (mülkiyyətçisinə) müraciət edir. Ərizədə kooperativin adı, hüquqi ünvanı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, müəssisə rəhbərinin soyadı, adı, atasının adı, əlaqə vasitələri, bazarda satılacaq məhsulun növü, miqdarı və satış üçün tələb olunan yerlərin sayı barədə məlumatlar göstərilir. Ərizəyə kənd təsərrüfatı kooperativinin dövlət qeydiyyatı şəhadətnaməsinin surəti əlavə olunur.*

*22-1.3. Bazarın rəhbəri (mülkiyyətçisi) ərizəyə 10 (on) iş günü müddətində baxaraq, kənd təsərrüfatı kooperativinə bazarda ticarət yerlərinin verilməsi ilə bağlı müqavilənin bağlanılmasına dair qərar (razılıq və ya əsaslandırılmış imtina) qəbul edir.*

### *22-2. Kənd təsərrüfatı kooperativlərinin nəzdində satış şəbəkələrinin təşkili və fəaliyyəti*

*22-2.1. Kənd təsərrüfatı kooperativləri satış şəbəkələrinin (fermer mağazaları, yaşıl marketlər, kənd təsərrüfatı kooperativi bazarları, topdansatış mərkəzləri) təşkili üçün torpaq sahəsinin istifadəyə və icarəyə verilməsi ilə bağlı yerli icra hakimiyyəti orqanına və ya bələdiyyə orqanına müraciət edirlər. Yerli icra hakimiyyəti orqanları və ya bələdiyyə orqanları ərazi planlaşdırılması sənədləri, o cümlədən nəqliyyat və mühəndis-kommunikasiya təminatı infrastrukturunun imkanları nəzərə alınmaqla, 1 (bir) ay müddətində müraciətə dair "Torpaq icarəsi haqqında"*

*Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq qərar (razılıq və ya əsaslandırılmış imtina) qəbul edirlər.*

*22-2.2. Kənd təsərrüfatı kooperativləri satış şəbəkələrinin təşkili üçün istifadəyə və ya icarəyə götürmək istədikləri bina və ya qeyri-yaşayış sahəsi ilə bağlı dövlət əmlakının sərəncamçısına - Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə və ya bələdiyyə orqanına müraciət edirlər. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi müraciətə 20 (iyirmi) gün müddətində baxaraq, həmin və ya başqa bir binanın və ya qeyri-yaşayış sahəsinin kənd təsərrüfatı kooperativinə icarəyə verilməsi barədə qərar qəbul edir və ya əsaslandırmaqla əmlakı icarəyə verməkdən imtina edir. Bələdiyyə orqanı mülkiyyətində olan obyektlərin kənd təsərrüfatı kooperativinin istifadəsinə və ya icarəsinə verilməsi məsələsinə 20 (iyirmi) gün müddətində baxır və rəsmi cavab verir.*

*22-2.3. Kənd təsərrüfatı kooperativləri satış şəbəkələrində iş rejimini, satılacaq məhsulların növünü və yerlərini müəyyənləşdirməli, satıcıları ticarət yerləri, ölçmə vasitələri ilə təmin etməli və ərazidə digər xidmətlərin (ərazinin təmizlənməsi (yığışdırılması), baytarlıq-fitosanitar və sanitar-epidemioloji nəzarət tədbirlərinin görülməsi və s.) göstərilməsini təşkil etməlidirlər.*

*22-2.4. Kənd təsərrüfatı kooperativi bazarında bazarın rəhbəri (mülkiyyətçisi) tərəfindən həmin kooperativin üzvləri üçün mövcud yerlərin 50 faizindən az olmamaq şərtilə ticarət yerləri ayrılır.*

## 23. İctimai iaşə xidmətlərinin göstərilməsi

23.1. İcraçı istehlakçılar üçün qanunvericiliyə zidd olmayan davranış qaydalarını müəyyən etmək (*tütün* çəkilməsinin məhdudlaşdırılması, salona daxil olarkən üst geyiminin girişdə qarderoba təhvil verilməsi və s.) hüququna malikdir.[107]

23.2. İctimai iaşə obyektlərində göstərilən xidmətlərin siyahısı icraçı tərəfindən sərbəst olaraq müəyyən edilir.

23.3. İctimai iaşə obyektlərində kənardan alınmış məhsulların satışı və əlavə xidmətlərin göstərilməsi zamanı yaranmış münasibətlər müvafiq satış və ya xidmət qaydaları ilə tənzimlənir.

23.4. İctimai iaşə obyektlərində hazırlanan məhsulların hər birinin kalkulyasiyası olmalıdır. Menyu və çeşid siyahısı hər bir yemək və məhsul üzrə tərtib edilmiş kalkulyasiya vərəqlərinə əsaslanmalıdır. İctimai iaşə obyektlərində istehlakçılarla hesablaşmalar zamanı nəzarət-kassa aparatının çeki ilə yanaşı, göstərilmiş ictimai iaşə xidmətinin dəyərini (çekdəki məbləği) təsdiq edən və xidmətin tərkibinə daxil olan yemək və məhsulların adları göstərilmiş hesab təqdim edilməlidir.

23.5. İcraçı öz təşkilatının adı, yerləşdiyi ünvanı, tipi (növü), dərəcəsi (kateqoriyası), iş rejimi, təklif olunan kulinariya məhsulları və göstərilən xidmətlər barədə zəruri informasiyanı istehlakçılara çatdırmalıdır.

23.6. Göstərilən xidmətləri düzgün seçə bilməsi üçün istehlakçının tələbi ilə icraçı ona aşağıdakılar barədə məlumatları verməlidir:

23.6.1. xidmətlərin siyahısı və icra şərtləri;

23.6.2. xidmətlərin qiymətləri və ödəniş şərtləri;

23.6.3. təklif olunan iaşə məhsullarının firma adı və tərkibi;

23.6.4. təklif olunan xörəklərin, alkoqollu və sərinləşdirici içkilərin pay həcmləri və qiymətləri;

23.6.5. istehsal olunan *iaşə obyektlərində hazırlanan məhsulların və göstərilən xidmətlərin istinad edildiyi sənəd (resept)*.[108]

23.7. İstehlakçılara məhsul və xidmətlər barədə məlumatlar mülkiyyətçi və ya obyektin rəhbəri tərəfindən təsdiq edilmiş menyu, çeşid siyahısı və yaxud digər üsullarla çatdırılmalıdır.

23.8. İstehlakçıya məlumatlar Azərbaycan dilində, zəruri hallarda isə digər dillərdə də verilməlidir. İstehlakçı ona təklif olunan iaşə məhsullarının əsas istehlak xassələri, keyfiyyəti, həmçinin xörəklərin hazırlanma texnologiyası barədə əlavə məlumatlar (kommersiya sirri təşkil edən məlumatlardan başqa) almaq hüququna malikdir.

23.9. İcraçı qarşılıqlı razılıq və şərtlər əsasında hər bir istehlakçıya xidmət göstərməyə borcludur. Xidmət şərtləri, o cümlədən qiymətlər (qanunvericiliklə müəyyən edilmiş ayrı-ayrı istehlakçı kateqoriyalarına güzəştli xidmətlərin göstərilməsi halları istisna olmaqla) bütün istehlakçılar üçün eyni (bərabər) müəyyən edilməlidir.

23.10. Əvvəlcədən sifariş əsasında göstəriləcək xidmətlər müqavilələrin, sifariş qəbzlərinin və ya digər sənədlərin tərtib edilməsi ilə rəsmiləşdirilir. Həmin sənədlərdə icraçı və istehlakçıların adı, soyadı, xidmət növü və onun qiyməti, ödəniş şərtləri, sifarişin qəbulu və icra tarixi, sifarişi qəbul edən şəxsin imzası və digər məlumatlar öz əksini tapmalıdır. Rəsmiləşdirilmiş sənədin bir nüsxəsi sifarişçiyə (istehlakçıya) təqdim olunmalıdır.

23.11. Sifarişlər telefon və digər rabitə vasitələri ilə qəbul edilə bilər.

23.12. İcraçı istehlakçıya onunla razılaşdırılmış müddətdə xidmət göstərməyə borcludur.

23.13. İcraçı istehlakçıya ~~normativ sənədlərin məcburi tələblərinə və~~ sifariş şərtlərinə uyğun olan keyfiyyətli xidmət göstərməlidir. ~~Təqdim edilən malların (məhsulların) keyfiyyəti və təhlükəsizliyi müvafiq normativ-texniki sənədlərin tələblərinə cavab verməlidir.~~[109]

23.14. İstehlakçı ona təklif olunan iaşə məhsullarının həcmini (çəkisini) yoxlamaq

hüququna malikdir. İcraçı istehlakçıya iaşə məhsulunun həcminin (çəkisinin) yoxlanılması üçün müvafiq şərait yaratmalıdır.

23.15. İcraçı göstərilən xidmətlərin keyfiyyətinə və təhlükəsizliyinə görə qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyət daşıyır.

*23.16. İctimai iaşə məhsullarının istehsalı və istehlakının təşkili (xidmət göstərilməsi) ilə məşğul olan qida subyektlərinin qida məhsulları ilə bilavasitə təmasda olan əməkdaşları Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən müəyyən olunmuş qaydada ilkin və dövri tibbi müayinələrdən keçirilməli, habelə gigiyenik təlimlərə cəlb olunmalıdırlar. İlkin və dövri tibbi müayinələrdən keçməmiş, habelə müxtəlif yoluxucu xəstəliklərin daşıyıcıları olan və ya infeksion xəstəliklərə yoluxmuş əməkdaşların ictimai iaşə obyektlərinə buraxılması qadağandır. İctimai iaşə xidmətinin təşkili zamanı işçilər qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə və şəxsi gigiyena qaydalarına əməl etməlidirlər.*[110]

23.17. İctimai iaşə obyektləri əsas fəaliyyəti ilə yanaşı, növündən və dərəcəsindən asılı olaraq, istehlakçılara əlavə (ödənişli) xidmətlər də göstərə bilərlər. Əlavə xidmətlərin dəyəri menyu və ya preyskurantda əks etdirilməlidir. İstehlakçıya məcburi əlavə xidmətlərin göstərilməsinə yol verilmir.

23.18. İcraçı əvvəlcədən sifarişin qarşılıqlı öhdəliklərlə müəyyən edilmiş müddətdə yerinə yetirilməsinə təminat verməlidir.

23.19. Əvvəlcədən sifariş üzrə göstəriləcək xidmətin icra müddətinin pozulduğu və ya keyfiyyətsiz yerinə yetirildiyi hallarda istehlakçı aşağıdakıları tələb edə bilər:

23.19.1. sifarişin icrası üçün yeni müddətin müəyyən edilməsini;

23.19.2. göstərilən xidmətin qiymətinin aşağı salınmasını;

23.19.3. icraçının hesabına (istehlakçını qane edən müddətdə) nöqsanların aradan qaldırılmasını və ya müvafiq keyfiyyətdə oxşar iaşə məhsulunun hazırlanmasını, yaxud onun digər məhsulla əvəz olunmasını;

23.19.4. xidmətdən imtina edilməsini.

23.20. Sifariş üzrə göstəriləcək xidmətin icra müddətinin pozulmasına görə istehlakçı ona dəymiş ziyanın tam həcmdə ödənilməsini tələb edə bilər. Zərərin ödənilməsi qanunvericiliklə müəyyən olunmuş müddətlərdə həyata keçirilir. Əgər icraçı xidmət müddətinin pozulmasının ondan asılı olmayan səbəblərdən və ya sifarişçinin təqsiri üzündən baş verməsini sübuta yetirərsə, istehlakçının tələbi ödənilmir.

23.21. İctimai iaşə obyektlərində məhsulun hazırlanması zamanı istifadə olunan suyun *təhlükəsizliyi və* keyfiyyəti *qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların* tələblərinə uyğun olaraq aşağıdakı şərtlərə cavab verməlidir:[111]

23.21.1. ictimai iaşə obyektində içməli, təmizləmə və digər məqsədlər üçün kifayət qədər və uyğun təzyiqdə isti və soyuq su olmalıdır;

23.21.2. su anbarları, qablar üstüörtülü, təmiz olmalı və asanlıqla yoxlanıla biləcək yerdə yerləşdirilməlidir;

~~23.21.3. istifadə olunan su qanunvericilikdə nəzərdə tutulmuş tələblərə və gigiyena normalarına cavab verməlidir.~~

23.22. İctimai iaşə xidmətinin təşkili zamanı qanunvericiliklə müəyyən edilmiş sanitariya qaydalarının və gigiyenik normativlərin tələblərinə ciddi riayət olunmalıdır.

## 24. Məişət və digər növ xidmət obyektlərində xidmətlərin göstərilməsi

24.1. İcraçı istehlakçıya göstərilən xidmətlərin (yerinə yetirilən işlərin) icra yerini (səyyar qəbul məntəqələri və digər yerlər) və şəraitini nəzərə almaqla, onların dəyərinin ödəniş forması və qaydası haqqında məlumat verməlidir.

24.2. Sifarişlərin qəbul edildiyi xidmət obyektlərində bu məlumatlar istehlakçı üçün rahat və görünən yerdə yerləşdirilməklə, aşağıdakıları əhatə etməlidir:

24.2.1. istehlakçıların hüquqlarının müdafiəsi ilə məşğul olan dövlət və ictimai qurumlar haqqında məlumatları;

24.2.2. göstərilən əsas və əlavə xidmətlərin (işlərin) siyahısını;

24.2.3. təklif olunan xidmətlərin (işlərin) və onların icrası zamanı istifadə olunan materialların, ehtiyat hissələrinin qiymətlərini;

24.2.4. istehlakçıya təklif olunan hazırlanacaq məmulatların (yerinə yetirilən işlərin) nümunələrini (modelini) nümayiş etdirən vitrinləri (moda jurnallarını, albomları və s.);

24.2.5. xidmət göstərilməsində (işin yerinə yetirilməsində) istifadə edilən əsas və köməkçi materialların istehlakçıya təklif olunan nümunələrini;

24.2.6. icraçının iş rejimi, hüquqi ünvanı və telefon nömrəsi haqqında məlumatları.

24.3. Göstərilən xidmət və icraçı haqqında istehlakçıya düzgün olmayan məlumatların verilməsi onun (istehlakçının) həyatına, sağlamlığına və ya əmlakına ziyan vurulması ilə nəticələnərsə, sonuncu müqaviləni pozmaqla (Azərbaycan Respublikasının qanunvericiliyi ilə daha yüksək məsuliyyət nəzərdə tutulmamışdırsa), ona dəymiş ziyanın tam həcmdə ödənilməsini tələb edə bilər.

24.4. İcraçı öz fəaliyyət növünə uyğun olan xidmətlər (işlər) üzrə sifarişləri qəbul edir. Xidmət göstərilməsi (işlərin yerinə yetirilməsi) üçün sifarişlər bilavasitə xidmət obyektlərində, onların filiallarında, iş, təhsil, yaşayış və istirahət yerlərində qəbul

edilə bilər. Xidmət göstərilməsi (işin yerinə yetirilməsi) üçün sifariş aşağıdakı məlumatları əks etdirən müqavilə ilə, habelə nağd pul hesablaşmaları aparılan zaman çek, qəbz və digər ciddi hesabat blankları tərtib edilməklə rəsmiləşdirilir:

24.4.1. icraçının hüquqi ünvanı, sifarişçinin adı və soyadı, ünvanı və telefonu;

24.4.2. sifarişin qəbul olunması tarixi, yerinə yetirilməsi müddəti və avans məbləği;

24.4.3. xidmətin (işin) növü, onun yerinə yetirilməsi üçün icraçı və istehlakçı tərəfindən təqdim olunan materialların (əşyaların) tam adı;

24.4.4. xidmətin qarşılıqlı razılaşdırılmış dəyəri və miqdarı;

24.4.5. təmirə verilən məmulatın zavod nömrəsi;

24.4.6. tərəflərin məsuliyyəti;

24.4.7. sifarişçinin və qəbul edənin imzaları;

24.4.8. tərəflərin razılığı ilə digər məlumatlar.

24.5. Məmulatların hazırlanması üçün sifarişlər nümunələr, moda jurnalları və ya sifarişçinin təqdim etdiyi eskizlər üzrə qəbul edilir. İcraçı istehlakçının razılığı əsasında məmulatın nümunə və hazırlanma texnologiyasından kənarlaşmalara (əgər kənarlaşma istehlakçının həyatı, sağlamlığı, mülkiyyəti və ətraf mühit üçün təhlükə yaratmırsa) yol verə bilər.

24.6. İcraçı normativ sənəddə nəzərdə tutulmuş və ya istehlakçı ilə müqavilədə müəyyən edilmiş müddətdə malın (göstərilən xidmətin nəticələrinin) təyinatı üzrə istifadə edilməsinə təminat verməlidir.

24.7. Müəyyən edilmiş vaxtdan artıq istifadə edilməsi istehlakçıların həyatına, sağlamlığına, onların əmlakına və ya ətraf mühitə təhlükə yarada və ya zərər vura bilən mallara (işlərə, xidmətlərə) xidmət müddəti (yararlılıq müddəti) müəyyən edilməlidir.

24.8. İstehlakçı müqavilə üzrə nəzərdə tutulmuş iş (xidmət) üçün çəkilmiş xərclərin dəyərini ödəməklə, istənilən vaxt xidmət göstərilməsi (iş görülməsi) haqqında müqaviləni poza bilər.

24.9. Sifariş yerinə yetirildikdən sonra, icraçı dəyəri istehlakçı tərəfindən ödənilmiş ehtiyat hissələri və onların qalıqları barədə ona (istehlakçıya) məlumat verməli, dəyişdirilmiş hissələri və detalları sifarişçiyə qaytarmalıdır.

24.10. İcraçı xidmət göstərilməsində (işin yerinə yetirilməsində) istifadə məqsədi ilə istehlakçı tərəfindən təqdim edilən materialların, ehtiyat hissələrinin və digər əşyaların düzgün istifadəsi üçün məsuliyyət daşıyır. İstehlakçıdan qəbul edilmiş materiallar, ehtiyat hissələri və digər əşyalar yararsız hala salındıqda və ya itirildikdə, icraçı 1 ay müddətində onu istehlakçının razılığı ilə eynitipli və keyfiyyətli malla (əşya ilə) əvəz etməlidir. Müəyyən səbəblərə görə əvəz edilməsi mümkün olmadıqda, istehlakçıya həmin materialın (əşyanın) dəyəri və vurulmuş ziyanın məbləği icraçı tərəfindən ödənilməlidir.

24.11. İcraçı istehlakçıya aşağıdakılar barədə məlumat verməlidir:

24.11.1. istehlakçının təqdim etdiyi materialların və ehtiyat hissələrinin keyfiyyəti və yararlılığı;

24.11.2. hazırlanmış məhsullardan və yerinə yetirilmiş işlərin (göstərilən xidmətlərin) nəticələrindən təhlükəsiz və səmərəli istifadə;

24.11.3. icraçıdan asılı olmadan yerinə yetirilən işin (göstərilən xidmətin) keyfiyyətinə xələl gətirə biləcək amillər;

24.11.4. qanunvericilikdə nəzərdə tutulmuş digər məlumatlar.

24.12. İcraçı aşağıdakıları təmin etməlidir:

24.12.1. təyin edilmiş iş rejiminə riayət edilməsini;

24.12.2. göstərilən xidmətlər (yerinə yetirilən işlər) haqqında məlumatlar verilməsini;

24.12.3. göstərilən xidmətin (yerinə yetirilən işin) lazımi keyfiyyətə, standartların tələblərinə və müqavilənin şərtlərinə uyğun olmasını;

24.12.4. hazırlanmış (təmir edilmiş) məhsulların təyin edilmiş müddətlərdə təhvil verilməsini;

24.12.5. göstərilən xidmətin (yerinə yetirilən işin) təhlükəsizliyini;

24.12.6. hazırlanmış (təmir edilmiş) məhsullar üzrə müəyyən edilmiş müddətlərdə zəmanət öhdəliklərinin yerinə yetirilməsini.

24.13. İcraçı sifarişi müqavilə ilə və ya digər sənədlərlə müəyyən edilmiş müddətlərdə yerinə yetirməlidir. Sifarişin icra müddəti, başlanğıc və son müddəti qeyri-iş gününə təsadüf etdikdə, icra müddəti növbəti iş günündən hesablanır.

24.14. Qarşılıqlı razılıq əsasında xidmətin (işin) istehlakçının evində və ya digər yerdə (məsələn, bağ sahəsində) icrası zamanı, icraçı müəyyən edilmiş müddətdə (vaxtda) işçilərin xidmət obyektinə gətirilməsini təmin etməli, istehlakçı isə öz növbəsində xidmət göstərilməsi (işin yerinə yetirilməsi) üçün lazımi şərait yaratmalıdır.

24.15. Qəbul edilmiş sifarişin icrasına başlanılmadığı və ya xidmətin (işin) gedişatı zamanı sifarişin müəyyən edilmiş müddətdə yerinə yetirilmədiyi, habelə sifarişin icra müddəti pozulduğu hallarda istehlakçı icraçıdan aşağıdakıları tələb edə bilər:

24.15.1. sifarişin icrasına başlanılması və ya onun tam yerinə yetirilməsi üçün yeni müddətin müəyyən edilməsini;

24.15.2. sifarişin yerinə yetirilməsinin digər şəxsə tapşırılmasını (icraçının hesabına);

24.15.3. xidmətə (işə) görə haqqın müvafiq məbləğdə azaldılmasını;

24.15.4. müqaviləni pozmağı və vurulmuş ziyanın ödənilməsini.

24.16. Sifarişin icrasına başlamaq (və ya onu tam yerinə yetirmək) üçün müəyyən edilmiş yeni müddət müqavilədə və ya digər sənəddə öz əksini tapmalıdır.

24.17. Yeni müəyyən edilmiş müddətlərin pozulduğu hallarda, istehlakçı müqavilənin pozulmasını və vurulmuş ziyanın ödənilməsini tələb edə bilər.

24.18. Sifarişin icrasına vaxtında başlanılmaması və ya xidmətin (işin) ləng gedişatı sifarişin müəyyən edilmiş müddətə icrasının qeyri-mümkünlüyünə səbəb olarsa, bu zaman icraçı istehlakçıya dəyən zərəri ödəməyə borcludur.

24.19. Yerinə yetirilmiş sifarişin müqavilə və ya digər sənəd üzrə müəyyən edilmiş qəbul müddətinin pozulması halları üçün müqavilə sənədlərində müxtəlif cərimə şərtləri nəzərdə tutula bilər.

24.20. Qanunda və ya müqavilədə digər hal müəyyən edilməmişdirsə, icraçı müqavilə üzrə şərtləşdirilmiş işi öz materialı və vəsaitləri ilə yerinə yetirməyə borcludur və materialın keyfiyyəti üçün məsuliyyət daşıyır.

24.21. Əgər icraçı zərərin qarşısıalınmaz qüvvənin təsiri və ya istehlakçının maldan, işin, xidmətin nəticələrindən istifadə və onları saxlama qaydalarını pozması nəticəsində əmələ gəldiyini sübuta yetirərsə, məsuliyyətdən azad edilir.

24.22. Sifariş üzrə icra olunmuş işlər və ya göstərilmiş xidmətlər tam şəkildə istehlakçılara çatdırılmalıdır.

24.23. İcra olunmuş işlərdə və ya göstərilmiş xidmətlərdə çatışmazlıqlar aşkar edildikdə, istehlakçı aşağıdakılardan birini tələb edə bilər:

24.23.1. göstərilmiş xidmətdə (yerinə yetirilmiş işdə) mövcud olan çatışmazlıqların əvəzsiz olaraq aradan qaldırılmasını;

24.23.2. göstərilmiş xidmətin (yerinə yetirilmiş işin) dəyərinin müvafiq məbləğdə azaldılmasını;

24.23.3. əvəzi ödənilməməklə, eyni növlü materialdan müvafiq keyfiyyətdə digər məmulatın hazırlanmasını və ya işin təkrar yerinə yetirilməsini (paltarların yuyulması və ya kimyəvi təmizlənməsi, təmir işləri və s.), yaxud öz vəsaitləri və ya üçüncü şəxsin hesabına çatışmazlıqların aradan qaldırılmasına çəkilmiş xərclərin ödənilməsini.

24.24. Göstərilən xidmətdə (yerinə yetirilən işdə) mövcud olan çatışmazlıqlar müəyyən olunmuş müddətdə aradan qaldırılmazsa, istehlakçı müqaviləni ləğv etməklə, vurulmuş ziyanın ödənilməsini tələb edə bilər. İstehlakçı həmçinin göstərilən xidmətdə (yerinə yetirilən işdə) çatışmazlıqlar və yaxud müqavilə şərtlərindən kənarlaşmalar aşkar etdikdə, həmin müqaviləni ləğv edə bilər. Müqavilənin ləğvi istehlakçının yazılı ərizəsinə (ləğv edilmə səbəbləri göstərilməklə) əsasən həyata keçirilir. Ərizəyə müqavilə əlavə olunur. Pulun, həmçinin xammal və materialların istehlakçıya qaytarılması ilə bağlı xərclər icraçının hesabına ödənilir.

24.25. Bu Qaydaların 24.15-ci bəndində nəzərdə tutulan tələblər aşağıdakı hallarda istehlakçı tərəfindən irəli sürülə bilər:

24.25.1. yerinə yetirilmiş sifarişin qəbulu zamanı və ya zəmanət müddətində;

24.25.2. icra olunmuş sifarişin qəbul edildiyi tarixdən qanunvericiliklə müəyyən edilmiş müddətdə (sifariş üzrə zəmanət müddəti müəyyən edilmədikdə);

24.25.3. sifarişin icrası zamanı çatışmazlıqlar aşkar edildikdə.

24.26. Xidmət göstərilməsi (işin yerinə yetirilməsi) zamanı aşkar edilmiş çatışmazlıqlar istehlakçının təyin etdiyi müvafiq müddətdə icraçı tərəfindən aradan qaldırılmalıdır.

24.27. Yerinə yetirilmiş sifarişin qəbulu zamanı istehlakçı tərəfindən aşkar edilmiş çatışmazlıqlar tərəflər arasında razılaşdırılmış müddətdə (əgər müqavilə üzrə daha az müddət müəyyən edilməmişdirsə) aradan qaldırılmalıdır. Çatışmazlıqların aradan qaldırılması üçün istehlakçı tərəfindən müəyyən edilmiş (və ya tərəflərlə razılaşdırılmış) müddət, tərəflərin imzaladıqları müqavilədə və ya digər sənəddə öz əksini tapmalıdır. Çatışmazlıqların aradan qaldırılması ilə bağlı müəyyən edilmiş müddətlərin pozulmasına görə icraçı qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyət daşıyır.

24.28. Xidmətin (işin) və onun yerinə yetirilməsi üçün istifadə edilən materialların, ehtiyat hissələrinin dəyəri və ödəniş forması tərəflər arasında qarşılıqlı razılıq əsasında müəyyənləşdirilir.

24.29. İstehlakçı öz istəyindən asılı olaraq, müqavilə bağlanılan (sifariş qəbul edilən) zaman ona göstəriləcək hər hansı xidmətin (işin) tam və ya qismən dəyərini əvvəlcədən ödəyə bilər.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 19 noyabr 2014-cü il tarixli **374** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 23 noyabr 2014-cü il, № 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1513)**

2. 12 may 2015-ci il tarixli **184** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 17 may 2015-ci il, № 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, №5, maddə 665)**
3. 25 fevral 2016-cı il tarixli **94** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 31 mart 2016-cı il, № 66, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 03, maddə 615)**
4. 13 may 2016-cı il tarixli **195** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 20 may 2016-cı il, № 108, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 5, maddə 955)**
5. 1 sentyabr 2016-cı il tarixli **335** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 6 sentyabr 2016-cı il, № 195, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 9, maddə 1563)**
6. 19 oktyabr 2016-cı il tarixli **415** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 21 oktyabr 2016-cı il, № 232, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1733)**
